

Milli azadlıqdan şirin nemət yoxdur!



# Özəl günün sevinci



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
28 avqust 2024-cü il, çərşənbə
№ 155 (6741)
Qiymәti 60 qəpik

# Davamlı proses - demokratik inkişaf



Bax səh. 2

## Seçkilər Azərbaycanın demokratik inkişaf tarixinə yeni uğur səhifəsi kimi yazılacaq

Bax səh. 5

## Azərbaycanın həqiqətləri, AŞPA-nın qərəzi...

Azərbaycanafobiya bir sıra Avropa təsisatlarının ayrı - ayrı təmsilçilərinin, o cümlədən də Avropa Şurası Parlament Assambleyasında (AŞPA) təmsil olunan bəzi deputatların iliyinə işləyib, qanına hopub desək, əsl həqiqəti ifadə etmiş olarıq. Bu qəbildən olanlar özlərinin kor zehniyyətləri ilə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təmin etməsini sinirə bilmir və ölkəmizlə bağlı davamlı şəkildə reallıqdan uzaq olan fikirlər səsləndirirlər. Son vaxtlarda bədnam xorda AŞPA-nın sədri, Yunanıstan parlamentinin üzvü Teodoros Rousopoulosun, Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə mətbuat katibi Peter Stanonun və Almaniya Parlamentinin üzvü Frank Şvabenin səsləri daha ucadan eşidilir. Təbii ki, adları çəkilən şəxslərin respublikamıza qarşı yönələn fəaliyyətləri və qərəzli fikirləri ölkəmizdə sükutla qarşılanmayıb. Azərbaycanın müvafiq qurumlarının Avropa təsisatlarının təmsilçilərinə cavabı kifayət qədər sərt olub. Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə mətbuat katibi Peter Stano və Almaniya Parlamentinin üzvü Frank Şvabenin ölkəmiz əleyhinə səsləndirdiyi fikirlərə dair medianın suallarını cavablandırarkən bildirib ki, Aİ-nin bir sıra institutları Azərbaycana qarşı təxribatlara son qoymalıdır. O cümlədən Qərbi Azərbaycan İcması (QAİ) bəyanat yayaraq Avropa təsisatlarının təmsilçilərinin ölkəmizə qarşı qərəzli mövqe tutmalarını pisləyib. QAİ AŞPA-da təmsil...

Bax səh. 3

## Qarabağ və Şərqi Zəngəzurda...



Bax səh. 3

## Tanrının qoşduğu Yusif dastanı

Bu mövzuda böyük bir əsər yazmağı hələ on doqquzuncu əsrin əvvəllərində dahi alman şairi, Tomas Mannın kumiri İohan Volfqanq Höte arzulayırdı. Memuarlarında dediyinə görə, belə parlaq dini rəvayətə Əhdi-Ətiqdə çox yığcam yer verilməsi özü də din içində din bəsləmiş Höteni məyus eləyər, onda Yusif peyğəmbər qissəsinin görünməyən tərəflərini qələmə almaq istəyi yaradarmış. Ancaq nədənsə tarixin ən böyük üç almanından birinə bu arzu müyəssər olmayıb. Gözəl İosif öz tərcümeyi-halının bütün təfərrüatıyla yazılmasını daha yüz il gözləyəsi olub.

Romanın ideyası müəllifin ağlına 1926-cı ildə Münhendə gəlmişdi. Tövratın “Varlıq” adlı ilk bölümündə yer almış dastanı bir daha gözdən keçirən Tomas Mann qəlbində həmin dastanda nağıl olunan əhvalatları daha geniş, daha yerli-yataqlı danışmaq arzusunun...

Bax səh. 7

## Qeydiyyat başladı...

Bir neçə gündən sonra tələbə adını qazanan gənclər yeni tədris ilinə başlayacaqlar. Bu il ali məktəblərə kifayət qədər boş plan yerləri qaldı. Adətən həmin yerlərə qəbul baş tutsa da, yenə boş qalan yerlər var. Səbəb tələbə adını qazanan gənclərin qəbul olduqları ali məktəbdə qeydiyyatdan keçməməsidir.

Dövlət İmtahan Mərkəzi (DİM) “Abituriyent” jurnalının 7-ci nömrəsini nəşr edib. Bu nömrədə 2024/2025-ci tədris ili üçün ali təhsil müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçim elanı, boş qalan yerləri olan ixtisaslar, bakalavriat səviyyəsinə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu və digər zəruri məlumatlar təqdim olunub. Qeyd edək ki, vəsait Azərbaycan və rus dillərində çap edilib.

Məlum olduğu kimi, ali təhsil müəssisələrinə builki qəbul imtahanalarının nəticələri bəlli olub. Bu gündən ali təhsil müəssisələrinin boş qalan yerləri üzrə ixtisas seçimi başlayır. Belə ki, avqustun 28-i saat 11:00-da ali təhsil müəssisələrinə bakalavriat səviyyəsi üzrə qəbul olunanlar üçün qeydiyyat prosesinə start veriləcək. Proses sentyabrın 6-dək internet üzərindən davam edəcək.

**Plan yerləri ən çox bu qrup üzrə dolub**

DİM İdarə Heyətinin sədri Məleykə Abbaszadə avqustun 26-da keçirilən mətbuat konfransında bildirib ki, son illər qəbul planında dövlət sifarişli yerlərin sayının artırılması nəticəsində ödənişsiz oxumaq imkanı əldə edən tələbələrin sayı çoxalmaqda davam edir. DİM sədri qeyd edib ki, müsabiqənin nəticələrinə fikir verdikdə qrup və ixtisaslar üzrə vəziyyətin necə formalaşacağı - müəyyən...

Bax səh. 8

## “123-cü Saziş” - yeni təhdid, nüvə qarşıdurması...



Bax səh. 7

## Rusiya Federasiyasının Prezidenti Vladimir Putindən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

Hörmətli Mehriban Arif qızı!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Siz haqlı olaraq həmvətənləriniz arasında və xaricdə yüksək nüfuza maliksiniz.

Rusiyada Sizin ölkələrimiz arasında müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsinə, müxtəlif sahələrdə ikitərəfli qarşılıqlı faydalı əməkdaşlığa şəxsi töhfənizi yüksək qiymətləndirirlər.

Bu yaxınlarda Bakıda keçirdiyimiz görüşü məmnunluqla xatırlayıram. Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, rifah və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram. İlham Heydər oğluna və bütün ailə üzvlərinizə səmimi salamlarımı çatdırmağınızı xahiş edirəm.

Hörmətlə,

**Vladimir Putin**

**Rusiya Federasiyasının Prezidenti**

# Özəl günün sevinci

Xalqımızın zəngin milli-mənəvi dəyərlərinə bağlılıq Azərbaycanın dövlət siyasətinin mühüm prinsiplərindən birini təşkil edir. Respublikamız məhz ənənəvi dəyərlər əsasında inkişaf edir və uğurlar qazanır. Biz qürur duyuruq ki, ölkəmizdə köklərə, ənənələrə bağlı olan vətənpərvər ruhlu gənclər yetişir.

Eyni zamanda, ölkəmizdə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın özlərinin və ailələrinin özəl günlərini həssas qruplardan olan insanların əhatəsində keçirmələri gözəl bir ənənəyə çevrilib. Bununla cəmiyyətə, böyüməkdə olan nəslə humanizm hissləri aşılanır, o ideya təlqin edilir ki, paylaşmaq, başqalarının köməyinə çatmaq, onları sevindirmək insanın ən dəyərli keyfiyyətidir.

## Bibiheybət ziyarətgah kompleksini ziyarət

Azərbaycan xalqının milli-mənəvi dəyərlər sisteminin formalaşmasında və zənginləşməsində İslam dini mühüm rol oynayıb. VII-VIII əsrlərdən etibarən xalqımızın həyat tərzi, mədəniyyəti, məişəti bəşəriyyəti saflığa, birliyə səsləyən İslam dini ilə sıx vəhdətdə olub və təbii ki, bu dinin çağırışları xalqımızın həyata baxışının, yaşam fəlsəfəsinin formalaşmasına öz müsbət təsirini göstərib. Eyni zamanda, ölkə ərazisində mövcud olan çoxsaylı abidələr Azərbaycanın İslam dini-mədəni dəyərlər sisteminə əhəmiyyətli töhfəsi kimi qiymətləndirilə bilər. Bibiheybət məscidi də belə tarixi abidələrdən biridir.

VII əsrin yadigarı olan Bibiheybətdə Peyğəmbər nəslinin dörd nümayəndəsi uyuyur. Bu ziyarətgah əsrlər boyu insanların inanc, ibadət yeri olub və xalqımız tərəfindən qorunub. Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva avqustun 26-da Bibiheybət ziyarətgah kompleksini ziyarət ediblər. Xatırladaq ki, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri 2008-ci ildə Bibiheybət ziyarətgah kompleksinin əsaslı yenidənqurmadan sonra açılışında iştirak ediblər. Yenidənqurma zamanı tarixilik prinsipi yüksək səviyyədə gözlənilib.



## Həssas qruplardan olan uşaqlar üçün əyləncə və istirahət proqramı

Azərbaycanın Birinci vitse - prezidenti Mehriban xanım Əliyevanın genişmiqyaslı fəaliyyətinə istinadən belə bir fikri qətiyyətlə ifadə edə bilərik: Dünyanı həm də xeyirxahlıq xilas edəcək. Mehriban xanım Əliyeva bir qayda olaraq özündə dərin humanizmi ehtiva edən təşəbbüslər irəli sürür. Bəli, o məhz həssas qruplardan olan uşaqlara qayğı göstərəndə özünü xoşbəxt hiss edir. Avqustun 26-da Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva valideyn himayəsindən məhrum olmuş və xüsusi qayğıya ehtiyacı olan uşaqlar, həmçinin şəhid övladları üçün Fond tərəfindən keçirilən əyləncə və istirahət proqramında iştirak ediblər. Mehriban Əliyeva və Leyla Əliyeva uşaqlarla söhbət edib, onların təşkil edilən bu şənliklə bağlı fikirləri ilə maraqlanıb, şəkillər çəkdiriblər. Uşaq evlərinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin və inteqrasiya təlimli internat məktəbinin sakinləri təəssüratlarını bölüşüb, burada yeni dostlar qazandıqlarını söyləyib, iştirak etdikləri oyunlar, əyləndikləri attraksionlar barədə danışıblar.

Xəzərin sahilində yerləşən “Dalğa Beach” istirahət məkanında təşkil olunan tədbir çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyeva və Leyla Əliyeva uşaq evlərində və internat məktəblərində tərbiyə alan uşaqların əl işlərindən ibarət sərgi ilə də tanış olub, onlarla birgə rəsm çəkiblər. Uşaqlar çəkdikləri rəsm nümunələrini Mehriban xanım Əliyevaya hədiyyə ediblər. Tədbir zamanı Mehriban xanım Əliyeva bu gün doğum günlərini qeyd edən şəhid övladları və uşaq evinin sakinləri ilə də görüşüb, onları təbrik edib.

Proqrama qatılan uşaqlar tədbirin təşkilinə görə öz minnətdarlıqlarını ifadə ediblər. 1 saylı uşaq evinin sakini, 8 yaşlı Dinara İsgəndərova Lənkərandan Bakıya gəldiyini vurğulayaraq bildirib: “Şənliyə bacımla birlikdə qatılmışıq. Əziz və dəyərli Mehriban xanım, dəstəyiniz üçün təşəkkür edirik”.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva həmçinin sosial şəbəkə hesablarında valideyn himayəsindən məhrum olmuş və xüsusi qayğıya ehtiyacı olan uşaqlarla birgə videosunu paylaşıb.

***MÜBARİZ***





# Davamlı proses - demokratik inkişaf

Bu gün qlobal miqyasda milli dövlətlərin inkişaf səviyyəsi həm də ölkələrdəki demokratik mühitə istinad edilməklə müəyyənləşdirilir. Bu baxımdan Azərbaycanın öz inkişafını demokratik islahatlar yolu ilə davam etdirməsi təqdirəlayiq haldır. Əlbəttə demokratiyanı mütləq bir anlayış kimi qəbul etmək mümkün deyil. Bu, davamlı bir prosesdir. Burada əsas məsələ dövlətlərin və liderlərin siyasi iradəsidir. Ölkəmizdə demokratik dəyişikliklər, siyasi sistemin təkmilləşdirilməsi, yeni çağırışlara və reallıqlara uyğun qərarların qəbul edilməsi, vətəndaş cəmiyyətinin fəallığının artırılması davamlı prosesə çevrilib. Bu gün tərəddüdsüz qeyd etmək olar ki, demokratik inkişaf yolunda həyata keçirilən sistematik tədbirlərin qanunauyğun nəticəsi kimi Azərbaycanda təkmil siyasi sistem bərqərar olunub. Qanunvericilik bazasının təkmilləşdirilməsi, hüquq və azadlıqların təmin olunması istiqamətində görülən tədbirlər, siyasi plüralizmin dəstəklənməsi, çoxpartiyalı sistemin inkişafı və digər istiqamətlər üzrə prioritet hesab olunan prinsiplər ölkədə davamlı demokratik cəmiyyətin inkişafından xəbər verir. Yeri gəmişkən, Yeni Azərbaycan Partiyasının (YAP) seçki platformasında demokratik inkişaf mühüm müddəalardan biri qismində təsbit olunub.

## “Hakimiyyətin mənbəyi xalqdır” prinsipi tam bərqərar olub

Ölkəmiz yüksək demokratik inkişaf səviyyəsinə hüquqi dövlət və aktiv vətəndaş cəmiyyəti quruculuğu yolu ilə çatmağı özünün strateji kursu kimi müəyyənləşdirib. Müstəqil Azərbaycanın banisi Heydər Əliyev hələ 1993-cü ildə ölkəmizin strateji inkişaf xəttini bəyan edərək deyib: “Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır”.

Azərbaycan ötən dövrdə bu strateji kursa daim sadiqlik nümayiş etdirib. Ölkədə aidiyyəti qurumların funksionallığının artırılması, onların praktiki müstəvidə effektiv fəaliyyətinin təmin olunması, həmçinin zəruri hüquqi bazanın möhkəmləndirilməsi yolu ilə hüquqi dövlət və aktiv vətəndaş cəmiyyəti quruculuğunun dövlət siyasətində prioritetliyinin təmin olunması həmişə ölkəmizin əsas paradiqmaları sırasında yer alıb.



Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunan Konstitusiyamız Azərbaycanda hüquqi dövlət quruculuğu və demokratiyanın inkişafı üçün fundamental baza rolunu oynayır. Burada demokratik hüquqi dövlətin bütün prinsipləri - qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olunub, insan hüquqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edilib. Qeyd edək ki, Konstitusiyamızın üçdə bir hissəsi məhz bu məsələyə həsr olunub.

Konstitusiyanın qəbul edilməsi ölkədə geniş hüquqi və demokratik islahatlar həyata keçirilməsinə əlverişli zəmin yaradıb. Böyük siyasətçi Heydər Əliyevin müstəqil dövlət quruculuğu siyasəti nəticəsində ölkəmizdə “hakimiyyətin mənbəyi xalqdır” prinsipi tam bərqərar olub, demokratik institutlar və vətəndaş cəmiyyəti təsisatları yaradılıb. Genişmiqyaslı demokratik islahatlar nəticəsində vətəndaşların hüquq və azadlıqları təmin olunub, ictimai münasibətlər demokratik normalar əsasında inkişaf edib, siyasi qüvvələrin dinc şəraitdə və sivil qaydalar müstəvisində sağlam rəqabəti üçün əlverişli zəmin formalaşdırılıb. “Azərbaycan xalqının hakimiyyətin yeganə mənbəyi olması, seçkili orqanlara seçkilərin ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə keçirilməsi, əsas insan və vətəndaş hüquq və azadlıqlarının qorunması ölkəmizin demokratik siyasi sisteminin əsaslarını təşkil edir”, - deyə YAP- ın seçki platformasında vurğulanıb.

## Yeni siyasi konfiqurasiyanın formalaşması

Ölkəmizdə demokratikləşmə prosesi Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq sürətli bir prosesə çevrilib. Son 20 ildə ölkədə demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi istiqamətində qətiyyətli addımlar atılıb. Respublikamızın demokratik inkişaf sahəsində qazandığı uğurları nəzərə çatdıran Prezident İlham Əliyev “Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilibdir, o cümlədən söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı, vicdan azadlığı. Azərbaycan əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir və ölkəmizdə azad internet fəaliyyət göstərir”, - deyə vurğulayıb.

Prezident İlham Əliyevin siyasi iradəsi ilə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, respublikamızda vətəndaş cəmiyyətinin fəallığı və siyasi palitranın rəngarəngliyi yüksək səviyyədə təmin edilib. Bu gün qürur hissi ilə vurğulaya bilərik ki, Azərbaycan söz və məlumat azadlığının ən yüksək səviyyədə təmin edildiyi ölkələr sırasında yer alır. Hazırda Azərbaycan dünya miqyasında mediaya dövlət dəstəyi göstərən azsaylı ölkələrdən biridir.

Ölkədə yeni siyasi konfiqurasiyanın formalaşması Azərbaycanın demokratiya sahəsində qazandığı ən böyük uğurlardandır. Zaman ötdükcə tələblər dəyişir və qarşıya yeni çağırışlar çıxır. Ölkəmizin demokratik inkişafla bağlı hədəfləri də məhz transformasiyalara uyğun müəyyənləşdirilir. 2022-ci ildə respublikamızda “Siyasi patiyalar haqqında” yeni qanun qəbul edildi. Yeni qanunun qəbul edilməsi tarixi zərurət idi. Çünki qüvvədə olan qanun 1992-ci ildə qəbul olunmuşdu. Ötən 30 il ərzində ictimai-siyasi həyatımızda, siyasi münasibətlərdə mühüm dəyişikliklər baş verib. Bütün bunlar yeni qanunun hazırlanıb qəbul olunmasını şərtləndirirdi. Beləliklə, parlamentdə təmsil olunan 11 siyasi partiya Milli Məclisin rəhbərliyinə müraciət edərək yeni qanun layihəsinin hazırlanmasını təklif etdilər. Yeni qanun layihəsi hazırlandı və müzakirələrə çıxarıldı. Müzakirələr mərhələsində 50-yə yaxın siyasi partiya 250-dən çox təkliflərini rəsmi qaydada təqdim edib. Yeni qanun layihəsi ilə bağlı parlamentdə ictimai dinləmələrin keçirilməsi də bu yöndə müsbət addım oldu. Bütövlükdə, qəbul edilənədək qanun layihəsinə 110 düzəliş edilib. Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi və yeni qlobal çağırışlar nəzərə alınmaqla hazırlanaraq qəbul edilən “Siyasi partiyalar haqqında” yeni qanun ölkəmizdə siyasi partiyaların fəaliyyətinin səmərəliliyinin artmasına geniş imkanlar açır. Deyə bilərik ki, respublikamızda siyasi konfiqurasiyanın dizaynında yeni bir mərhələnin əsası qoyulub. Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan bu proses uğurla irəliləməkdədir.

Hazırkı seçki marafonu ölkəmizdə demokratik mühitin yüksək səviyyədə bərqərar olmasının daha bir göstəricisidir. Mərkəzi Seçki Komissiyasının təqdim etdiyi statistikadan aydın şəkildə görünür ki, qarşıdan gələn seçkilərə Azərbaycan cəmiyyətində, o cümlədən də siyasi partiyalarda böyük maraq var və seçkilər ciddi rəqabət mühitində keçəcək. Bütövlükdə, 24 siyasi partiyanın namizədləri, o cümlədən də ayrı-ayrı partiyaların rəhbərləri seçki marafonuna qoşulublar və hazırda tam sərbəst şəkildə özlərinin təbliğat-təşviqat kampaniyalarını aparırlar. Namizədlər üçün yeganə tələb və şərt isə qanunvericiliyin tələblərini gözləməkdir. Seçkiləri çoxsaylı yerli və xarici müşahidəçilər izləyəcəklər.

## Azərbaycanın sərbəst seçimi

Ölkənin demokratikləşməsi Azərbaycanın sərbəst seçimidir. Burada biz kənar diktələri qəbul etmirik. Ölkəmiz Prezident İlham Əliyevin siyasi iradəsi əsasında müasir dövlət kimi inkişaf etdirilir. Demokratiyanın genişləndirilməsi də respublikamızın müasir dövlət quruculuğu hədəflərinin ön sıralarında yer alır.

Qeyd etmək yerinə düşər ki, bütövlükdə Azərbaycan cəmiyyəti dövlətin demokratikləşmə siyasətini dəstəkləyir. Məlumdur ki, xaricdəki bəzi dairələr demokratiya anlayışını milli dövlətlərə qarşı bir təzyiq vasitəsinə çevirməyə çalışırlar. Açıq deyək ki, biz də belə hallarla üzləşmişik, ayrı-ayrı illərdə demokratiya tələbi ilə ictimai-siyasi sabitliyi pozmağa cəhdlər göstərilib. Ancaq respublikamızda bu ssenarilər baş tutmayıb və burada cəmiyyətin, bütün xalqın dövlətə dəstəyi həlledici olub. Ölkəmizdə demokratik dəyərlərə zidd olan neqativ hallara qarşı sistemli mübarizə aparılır və bu siyasət bundan sonra da davam etdiriləcək.

***Mübariz FEYİZLİ***

# Qarabağ və Şərqi Zəngəzurda...

## Həm kredit qoyuluşları, həm də sahibkarların sayı artır

2024-cü il avqustun 1-nə Azərbaycanın regionlarında (Bakı iqtisadi rayonu istisna olmaqla) bankların və bank olmayan kredit təşkilatlarının kredit portfeli 5,82 milyard manat təşkil edib. Bu göstərici ötən ilin müvafiq dövrünün göstəricisindən 15,6 faiz çoxdur. Bank və kredit təşkilatlarının ayırdığı vəsaitlərin bölgüsündə azad edilmiş ərazilərin payı daha çox müşahidə edilir. Mərkəzi Bankın məlumatına görə, hazırda kreditləşmənin ən yüksək olduğu region Qarabağ iqtisadi rayonudur. Cari ilin 7 ayı ərzində bu bölgəyə 456 milyon manatdan çox kredit verilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 21,4 faiz çoxdur.

Qarabağ iqtisadi rayonu Azərbaycanın 14 iqtisadi rayonlarından biri kimi ‘mühüm aqrar və sənaye bölgəsidir. Ağcabədi, Ağdam, Ağdərə, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa, Tərtər inzibati rayonları və Xankəndi şəhərindən ibarət olan bu iqtisadi rayonun sahəsi 7330 kv.km-dir və 2020-ci ildən sonra bölgənin iqtisadi həyatında əsil dönüş başlayıb. Həm dövlət, həm də dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində həyata keçirilən layihələr bu bölgədə infrastruktur layihələrinin icrası ilə yanaşı, sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı, rabitə, ticarət və digər sahələrin ümumi inkişafı Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əlavə dəyərin artımını təmin edib. Bu dinamika demək olar ki, adıçəkilən iqtisadi rayonların bütün ərazilərində qeydə alınıb. Xüsusilə də, Laçında inkişaf dinamikası 5 dəfə, Kəlbəcərdə isə 2,1 dəfə, Füzulidə 1,8 dəfə artıb. Qubadlıda iqtisadi artım dinamikası 65 faiz, Ağdamda isə 58 faiz təşkil edib.

Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına ötən il sərmayə qoyuluşları da ölkə üzrə investisiya portfelində xüsusi üstün yer tutub. Ən böyük yatırımlarda paytaxt Bakı şəhəri ilk yerdə dayansa da, azad edilmiş ərazilərdəki rayonlar sonrakı yerləri tutub. Bu rayonlarda 2023-cü ildə kapital qoyuluşlarının həcmi təxminən 5,5 milyard manat təşkil edib. Belə ki, ötən il Laçına yatırılmış sərmayələrin həcmi 1,5 milyard manat, Kəlbəcərə 880 milyon manat, Füzuliyə 677 milyon manat, Cəbrayıla 639 milyon manat, Şuşaya 623 milyon manat, Zəngilana 590 milyon manat, Ağdama isə 568 milyon manat olub.




Azad edilmiş ərazilərdə, o cümlədən Qarabağ iqtisadi rayonunda 2024-cü ilin birinci yarısında iş yerlərinin yaradılması da sürətlənib. Belə ki, yanvar-iyun aylarında işğaldan azad edilmiş rayonlarda 840 yeni iş yeri yaradılıb ki, onun 299-u Laçının, 232-si Şuşanın, 103-ü Ağdamın, 42-si Kəlbəcərin, 38-i Cəbrayılın, 37-si Füzulinin, 15-i Xankəndinin, digərləri isə başqa rayonların payına düşür. Cəmi bir neçə ay əvvəl doğma sakinlərinə qovuşmuş Xocalıda da bir neçə iş yeri yaradılıb. Ümumilikdə, bu proses fasiləsiz olaraq davam etdirilir və ilin sonunda bu bölgədə iş yerlərinin sayının 1200-ü ötəcəyi gözlənilir.

Həmin ərazilərdə yeni fəaliyyətə başlayan sahibkarlıq subyektlərinin də sayında artımlar qeydə alınıb. Belə ki, hesabat dövründə azad edilmiş rayonlarda 159 yeni müəssisə və təşkilat, 1726 yeni fərdi sahibkarlıq subyekti dövlət qeydiyyatından keçib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə yeni yaradılmış müəssisə və təşkilatların sayı 90, fərdi sahibkarların sayı isə 488 vahid artıb. Fərdi sahibkarların böyük bir hissəsi, təxminən 520-si Ağdamda qeydə alınanlardır. Bu rayondakı Sənaye Parkının yaradılması sahibkarların fəaliyyətə başlaması üçün mühüm rol oynamaqdadır. Eləcə də, Füzuli və Kəlbəcərdə də sahibkarlıq subyektlərinin sayı durmadan artır, bu rayonlarda birlikdə 600-dən çox fərdi sahibkar mövcuddur. Şuşada 61, Xocalıda isə 42 sahibkarlıq subyekti qeydə alınıb.

Artıq Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında iqtisadi dəyər yaradan sahələr formalaşır və biznesin ilk addımları öz müsbət səmərəsini göstərməyə başlayır. İki il əvvəl fəaliyyətə başlamış Zəngilandakı “Dost Aqropark” layihəsi artıq öz müsbət nəticələrini verməkdədir. Bu ərazidə ötən il kənd təsərrüfatı məhsullarının istehsalı ümidverici göstəricilərlə yadda qalıb. Yaxud Cəbrayıl rayonundakı “Araz Vadisi İqtisadi Zonası” və Sənaye Parkının yeni formalaşan sənaye potenisalının imkanları böyüyür. Bu bölgədə Rusiyanın “Kamaz”, İtaliyanın “İveco” markalı avtomobilləri üçün servis mərkəzi yaradılıb və rezidentlərin sayı artmaqdadır. Artıq 5 sahibkarlıq subyekti Parkın rezidenti kimi, 1 sahibkarlıq subyekti isə qeyri-rezident kimi qeydiyyata alınıb və investisiya təşəbbüsləri dayanmadan artır. Eləcə də Qubadlı və Zəngilanda taxılçılıq, o cümlədən üzümçülük, meyvəçilik, fındıqçılıq sahələri, heyvandarlıq təsərrüfatları, həmçinin, Kəlbəcər və Laçında arıçılıq təsərrüfatları yaradılıb. Bütün bu amillər Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarının ilk iqtisadi artımının nümayişidir və bölgə artıq məhsul buraxılışı üçün hərəkətə gətirilib və işğaldan azad edilmiş ərazilər iqtisadi güc mənbəyi kimi ölkə iqtisadiyyatında əlavə dəyərin yaradılmasına inteqrasiya olunur.

Azərbaycan Prezidentinin Qarabağ iqtisadi rayonundakı işğaldan azad edilmiş ərazilərdə Xüsusi nümayəndəsi Emin Hüseynov bildirib ki, regionda böyük tikinti işləri aparılır, yerli iqtisadiyyatın qurulmasına özəl investisiyalar da cəlb olunacaq. Qarabağ iqtisadi rayonunda 2030-cu ilədək təqribən 150 min iş yerinin açılacağı gözlənilir. Hazırda bu bölgədə aqrar, sənaye və turizm layihələrinin inkişafı həmin rayonlarda məhsul buraxılışının əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq. Ümumilikdə isə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında iş yerlərinin və biznesin fəallığının artması sayəsində bölgənin iqtisadi inkişafında tamamilə yeni mərhələ başlayacaq.

***E.CƏFƏRLİ***

# Azərbaycanın həqiqətləri, AŞPA-nın qərəzi...

## Təxribatlara son qoyulmalıdır!

**Azərbaycanafobiya bir sıra Avropa təsisatlarının ayrı - ayrı təmsilçilərinin, o cümlədən də Avropa Şurası Parlament Assambleyasında (AŞPA) təmsil olunan bəzi deputatların iliyinə işləyib, qanına hopub desək, əsl həqiqəti ifadə etmiş olarıq. Bu qəbildən olanlar özlərinin kor zehniyyətləri ilə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təmin etməsini sinirə bilmir və ölkəmizlə bağlı davamlı şəkildə reallıqdan uzaq olan fikirlər səsləndirirlər. Son vaxtlarda bədnam xorda AŞPA-nın sədri, Yunanıstan parlamentinin üzvü Teodoros Rousopoulosun, Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə mətbuat katibi Peter Stanonun və Almaniya Parlamentinin üzvü Frank Şvabenin səsləri daha ucadan eşidilir. Təbii ki, adları çəkilən şəxslərin respublikamıza qarşı yönələn fəaliyyətləri və qərəzli fikirləri ölkəmizdə sükutla qarşılanmayıb. Azərbaycanın müvafiq qurumlarının Avropa təsisatlarının təmsilçilərinə cavabı kifayət qədər sərt olub. Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə mətbuat katibi Peter Stano və Almaniya Parlamentinin üzvü Frank Şvabenin ölkəmiz əleyhinə səsləndirdiyi fikirlərə dair medianın suallarını cavablandırarkən bildirib ki, Aİ-nin bir sıra institutları Azərbaycana qarşı təxribatlara son qoymalıdır. O cümlədən Qərbi Azərbaycan İcması (QAİ) bəyanat yayaraq Avropa təsisatlarının təmsilçilərinin ölkəmizə qarşı qərəzli mövqe tutmalarını pisləyib. QAİ AŞPA-da təmsil olunanlardan Azərbaycana qarşı ayrı-seçkiliyə son qoymağı tələb edib.**

### Əsası olmayan absurd və qərəzli iddialar

Əvvəlcə adları çəkilən şəxslərin ölkəmizlə bağlı səsləndirdikləri bəzi fikirlərə diqqət yetirək. Bu iddialar başdan-ayağa absurddur və sırf qərəzdən ibarətdir. Məsələn, Almaniya Parlamentinin üzvü Frank Şvabe “Azadlıq Radiosu”na verdiyi 23 avqust tarixli müsahibəsində Azərbaycanın Avropa Şurasında üzvlükdə maraqlı olmadığını bildirərək, Azərbaycanı Avropa Şurasının təbliğ etdiyi dəyərlərə sadiq olmamaqda ittiham edib, Avropa Şurasının Parlament Assambleyasının Milli Məclisə seçkilərdə müşahidəçi kimi dəvət edilməməsinə irad bildirib və s. Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə mətbuat katibi Peter Stano isə 23 avqust tarixində “Politico” qəzetinə müsahibə zamanı, “Azərbaycanda ötən ildən bəri müstəqil jurnalistlərin, hüquq müdafiəçilərinin, vətəndaş cəmiyyəti nümayəndələrinin həbs olunduğunu” bildirərək, onların azadlığa buraxılmalarına dair çağırışlar edib. AŞPA-nın sədri, Yunanıstan parlamentinin üzvü Teodoros Rousopoulosun səslənmələri də eyni dərəcədə qərəzlidir. O, rəsmi Bakının bir sıra AŞPA üzvlərini “arzuolunmaz şəxs” elan etməsinə münasibət bildirib. Teodoros Rousopoulos özüsayağı nəticə çıxararaq bu addımın yalnız əks nəticə verə biləciyini deyib. Qeyd edək ki, Rousopoulos üzv dövlətlərin demokratiya standartlarına hörmətlə bağlı öhdəlik götürdüklərini xatırlatmağı da yaddan çıxarmayıb...

Diqqət çəkdiyimiz iddialar, yumşaq desək, yalnız təəccüb və heyrət doğurur. Avropa təsisatlarının təmsilçiləri reallıq, obyektivlik hisslərini bu qədərmi itiriblər? Bu gün Azərbaycanı AŞPA ilə əməkdaşlıqda maraqlı olmamaqda günahlandıranlar qurumun postmüharibə dövründə davamlı şəkildə anti - Azərbaycan mövqeyi sərgilədiyini niyə yaddan çıxarırlar? Avropa Şurası Parlament Assambleyası 30 il ərzində Ermənistanın işğalçılıq siyasətini görməzdən gələn, “siyasi məsələlərə qarışmaq bizim platformanın işi deyil” deyən qurumlar siyahısında da “liderlər” sırasında yer alırdı. Hər dəfə Azərbaycan məsələ qaldıranda, işğal altında olan ərazilərimizə missiyalar göndərilməsinə çağırışlar edəndə, bütün bunları təpki ilə qarşılayan avropalı parlamentarilər heyrət doğuracaq “soyuqqanlılıqlarını” AŞPA-ın insan hüquqları ilə məşğul olan təşkilat olması ilə əsaslandırmağa çalışırdılar. Belə isə nə üçün missiyası insan hüquqlarının müdafiəsi olan AŞPA azərbaycanlı qaçqın və məcburi köçkünlərin vəziyyətinə biganə yanaşırdı? Ağzına aldığı suyu boşaldan AŞPA postmüharibə dövründə Qarabağla bağlı məsələləri, o cümlədən də erməni əhalinin “pozulan” hüquqlarını dəfələrlə müzakirələrə çıxarıb və hər dəfə də qalib Azərbaycanın yaratdığı reallığa əyri güzgüdən baxış edilib. Son olaraq yanvarın 24-də AŞPA-nın plenar iclası Azərbaycanın nümayəndə heyətinin etimadnaməsinin substantiv əsaslarla qəbul edilməməsinə çağıran qətnamənin lehinə səs verib. Öz növbəsində Azərbaycan Respublikasının Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyəti yanvarın 24-də qurumun iclasında bəyanatla çıxış edib. Bəyanatda bildirilir ki, AŞPA-da mövcud olan dözülməz irqçilik, Azərbaycanofobiya və İslamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib. Azərbaycanın nümayəndə heyəti bəyanatı səsləndirəndən sonra məkanı tərk edib.




Azərbaycanın AŞPA-dan uzaqlaşmasının qısa xronologiyası bundan ibarətdir. Adları çəkilən şəxslər bu xronologiyanı yazanlar sırasında olsalar da, indi özlərini unutqanlar kimi aparırlar. Bu, sadəcə unutqanlıq deyil, bunun adı Azərbaycanafobiya xəstəliyidir, onun əsas simptomu isə ölkəmizi qaralamaqdır. “Frank Şvabeyə yaxşı məlumdur ki, Avropa Şurasının Parlament Assambleyasının müşahidəçilərinin Milli Məclisə seçkiləri müşahidə etməməyə dəvət olunmamasının yeganə səbəbi Almaniya rəsmiləri tərəfindən daxil olmaqla ölkəmizə verilən siyasi səviyyədə vədlərə baxmayaraq, Azərbaycan nümayəndə heyətinin mandatının hələ də bərpa edilməməsidir. Azərbaycan-Rusiya münasibətlərdən narahatlıq ifadə edən Şvabenin Almaniyada və AŞPA-da Rusiya ilə əməkdaşlıqda olan, hətta bu gün Rusiyanın “Qazprom” şirkəti ilə yaxından əməkdaşlıq edən şəxslərdən danışması yerinə düşərdi”, - deyə Ayxan Hacızadə bildirib.

Bir sıra korrupsiya hallarında, qaranlıq biznes əlaqələrində adı hallanan Frank Şvabenin Azərbaycanın noyabrda ev sahibliyi edəcəyi COP29 konfansını ucuz manipulyasiya predmetinə çevirməyə çalışması da bu insanın nə dərəcədə qərəzli, saxta və ikiüzlü siyasətçi olduğunu bir daha ortaya qoyur. Azərbaycanın COP29-a sədrliyinin bu prosesə aidiyyəti olmayan siyasi motivlərlə şərtləndirilməsi, ölkəmizin öhdəliyi daxil olmaqla, iqlim dəyişikliyi ilə mübarizənin mahiyyətinə zidd fikirlər səsləndirilməsi Şvabenin Azərbaycana qarşı qərəzini növbəti dəfə nümayiş etdirir. “Şvabenin COP29 çərçivəsində ölkəmizə səfər etmək niyyətinə gəldikdə qeyd edək ki, AŞPA-da Azərbaycan nümayəndə heyəti əleyhinə səs vermiş şəxslər “arzuolunmaz şəxslər” siyahısına salınıb. AŞPA-da nümayəndə heyətimizin mandatı bərpa olunmayanədək sözügedən şəxslər Azərbaycana gəldikləri təqdirdə, onlara ölkə ərazisinə daxil olmağa icazə verilməyəcək. Azərbaycan beynəlxalq səviyyədə üzərinə götürdüyü öhdəliklərə sadiqdir, bu öhdəlikləri yaxşı anlayır. Bununla yanaşı, bu öhdəliklərin yalnız birtərəfli və ikili standartlar əsasında tətbiq edilməsinə, onlardan sui-istifadə edilərək ölkəmizə qarşı qərəzli yanaşmaların tətbiq edilməsinə yol verilməyəcəyini bir daha diqqətə çatdırırıq”, - deyə Ayxan Hacızadə vurğulayıb.

### Azərbaycanın suveren hüququ

Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda bildirilir ki, Azərbaycan tərəfi özünün milli maraqlarına söykənərək Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı çıxan, irqi ayrıseçkiliyə yol verərək Avropa İnsan Hüquqları Konvensiyasını pozan məlum AŞPA üzvlərini arzuolunmaz şəxslər elan edib. İrqçiləri ifşa edən bu qərar Azərbaycanın suveren haqqıdır və insan hüquqlarının təşviqinə xidmət edir. Bu baxımdan, AŞPA-nın sədri, Yunanıstan parlamentinin üzvü Teodoros Rousopoulosun və AŞPA-nın Almaniyadan olan üzvü, bədnam Azərbaycanofob Frank Şvabenin Azərbaycanın sözügedən qərarına münasibətdə ifadə etdikləri qəbuledilməzdir.

QAİ-nin belə birmənalı mövqedən çıxış etməsi tam başadüşüləndir. İcma zamanında doğma yurd yerlərindən zorla deportasiya edilən soydaşlarımızı təmsil edir. Yurd yerlərinə qayıtmaq həmin insanların və onların vərəsələrinin qanuni haqqıdır. Bunu beynəlxalq konvensiyalar da tələb edir. Ancaq AŞPA və digər Avropa təsisatları söhbət azərbaycanlı qaçqın və məcburi köçkünlərdən getdikdə beynəlxalq normaları yada salmaq istəmirlər. “Son 30 il ərzində Azərbaycan torpaqlarının işğalına son qoyulmasına çağırmayan, XX əsrdə, bir ölkənin paytaxtında “Türksüz Ermənistan” şüarı ilə keçirilən çoxminli aksiyaları pisləməyən, qayıdış hüququnun yalnız ermənilərə aid olduğunu təbliğ edən, qərbi azərbaycanlıların öz dədə-baba yurdlarına qayıdışı ilə bağlı çağırış etməyən AŞPA-ya və bəzi Qərb təsisatlarına yığışmış bu “insan hüquqları aşiqləri”nin qərəzli fikirləri Azərbaycan xalqı üçün heç bir dəyər kəsb etmir”, - deyə QAİ-nin bəyanatında vurğulanıb.

***Mübariz ABDULLAYEV***

# Yeni dövrün yeni zəfərlərlə zənginləşməsi üçün geniş imkanlar mövcuddur



**71 saylı Cəlilabad şəhər seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Malik Həsənov yap.org.az saytına müsahibə verib.**

**- Malik müəllim, sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcək. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm ümumxalq Zəfərindən sonra ilk dəfə bütün ölkə ərazisində keçirilən parlament seçkilərinin önəmi barədə nə deyə bilərsiniz?**

- Qalib, ərazi bütövlüyü və suverenliyi tam bərpa olunan ölkənin vətəndaşı olmaq böyük qürurdur. Xalqımızın bu uğurların fonunda bütün ölkə ərazisini əhatə edəcək seçkilərdə iştirak edəcəyinin sevinci onların fəallığında, təşkil edilən görüşlərdə səsləndirdikləri fikirlərdə özünün aydın ifadəsini tapır. Ölkədə keçirilən seçkilər daim belə yüksək ovqatla müşayiət olunur. Lakin cari ilin seçkilərində tamamilə fərqli bir ab-havanı müşahidə edirik.

Uğurlarımıza yol açan və bundan sonra da Azərbaycana möhtəşəm zəfərlər qazandıracaq amil məhz Heydər Əliyev siyasətidir. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmaqla Azərbaycanın bugünkü və gələcək inkişafının təməlini qoydu. Azərbaycanın müstəqilliyinin bərpasının ilk illərində yaşadıqları tariximizin qaranlıq səhifəsi kimi daim vərəqlənir. Ölkədə hakimiyyətsizliyin mövcudluğu Azərbaycanı böyük faciələr, problemlərlə üz-üzə qoymuşdu. Azərbaycan müstəqilliyini itirmək və bir dövlət olaraq dünya xəritəsindən silinmək təhlükəsini yaşadı. Belə çətin məqamda yenə də xalqına arxa - dayaq olan, səsinə səs verən Ulu Öndər Heydər Əliyev idi. Ümummilli Liderin xidmətlərindən bəhs edərkən ilk olaraq onun xilaskarlıq missiyasının göz önünə gəlməsi səbəbsiz deyil. Azərbaycan dahi şəxsiyyət Heydər Əliyevin zəngin idarəçilik təcrübəsinin, qətiyyətinin, xalqına, dövlətinə bağlılığının nəticəsi olaraq faciələrdən xilas oldu, inkişaf, tərəqqi yoluna çıxdı. 1993-cü ilin iyun ayından başlanan yol uğurla davam edir, Azərbaycanı möhtəşəm uğurlara, zəfərlərə qovuşdurur, insanlarda yüksək əhval-ruhiyyənin, gələcəyə inamın daha da artmasını şərtləndirir. Bugünkü qalib və bütövləşən Azərbaycan bunun bariz nümunəsidir.

Ümummilli Liderin şah əsəri olan müasir müstəqil Azərbaycan dövlətçilik tarixinin mühüm uğurlarla, zəfərlərlə zəngin mərhələsini başa çatdıraraq yeni dövrə qədəm qoyub. Bu dövrün başlanmasını şərtləndirən başlıca uğurumuz, təbii ki, ötən il ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması idi.

Azərbaycanın uğurlarından, gücündən və qüdrətindən, ədalətə və beynəlxalq hüquqa söykənən siyasətindən bəhs edərkən ilk olaraq 44 gündə 30 ilin işğalına son qoyulması, tarixi ədalətin bərpası, onun ardınca isə 2023-cü ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin həyata keçirdiyi bir günlük antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpa edilməsi böyük qürur hissi ilə qeyd edilir.

Azərbaycanın addım-addım hədəflərə doğru inamla irəlilədiyinin şahidi olan xalq hər zaman Heydər Əliyev yolunun davamına dəstəyini ölkə Prezidentinin ətrafında sıx birləşməsi, Yeni Azərbaycan Partiyasına böyük inamı, etimadı ilə, eyni zamanda, ölkədə keçirilən seçki prosesində yüksək fəallıq nümayiş etdirərək verdiyi səslərlə ifadə edir. Bugünkü seçki ab-havası da bunun bariz nümunəsidir.

2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə, xalq kimi qədəm qoyduq. Bu dövrün əsas çağırışlarından biri kimi 7 fevral tarixində ölkəmizdə növbədənkənar prezident seçkiləri keçirildi. Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevin seçkilərdə inamlı qələbəsi həyata keçirilən siyasətə dəstəyin, Heydər Əliyev yoluna sədaqətin ifadəsi oldu. Əminik ki, 1 sentyabr - növbədənkənar parlament seçkilərinin nəticələri də bu inamın daha bir təsdiqi olacaq.

**- Yeni Azərbaycan Partiyasının seçki platformasında son 30 ildə qazanılan möhtəşəm uğurlar və qarşıda duran hədəflər öz əksini tapıb. Yeni dövr hansı çağırışları özündə ehtiva edir?**

- Hazırda qarşımızda dayanan başlıca məqsəd növbəti hədəflərin gerçəkləşdirilməsidir. Bu hədəflər bütün sahələri əhatə edir.

Azərbaycanın hərtərəfli inkişafı dövlət siyasətinin əsasını təşkil edir. Ölkəmizə hansı sahədən baxsaq, zəngin təcrübənin, uğurlu, davamlı inkişafın şahidi olarıq. 2020-ci ilin 10 noyabr tarixindən isə hədəflərimiz sırasına işğaldan azad edilmiş ərazilərimizin bərpası və Böyük Qayıdışın həyata keçirilməsi daxil olub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 2020-ci il noyabr 16-da Füzuli və Cəbrayıl rayonlarına, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərinə səfərləri bu istiqamətdə atılan mühüm addım oldu. Bu ilk səfər özündə mühüm məqamları və mesajları ehtiva etdi: bu torpaqların əsl sahibi bizik və burada əbədi olacağıq! Qarabağın və Şərqi Zəngəzurun cənnət məkana çevrilməsini qarşıya əsas hədəf kimi qoyan dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin miqyası bu əminliyə əsas verir.

Qarabağımızın və Şərqi Zəngəzurumuzun hava qapılarının qısa müddətdə dünyaya açılması iqtisadi imkanlarımızın təqdimatında əhəmiyyətli rol oynadı. Bu mühüm addım həmin ərazilərimizin strateji əhəmiyyətinə də işıq saldı. Azad edilmiş torpaqlarımızda üç beynəlxalq hava limanının inşası nəzərdə tutulurdu. Artıq onlardan ikisi - Füzuli və Zəngilan Beynəlxalq Hava limanları istifadəyə verilib, Laçın Beynəlxalq Hava Limanının tikintisi davam edir. Onun cari ilin sonu, 2025-ci ilin əvvəli üçün istifadəyə verilməsi planlaşdırılır. Bu qısa dövrdə dörd şəhərə və dörd kəndə soydaşlarımızın qayıdışı görülən işlərin aydın mənzərəsini yaradır. Qürurvericidir ki, sakinlərinə qovuşan şəhərlərimiz sırasında Şuşa və Xocalı da var. Bu ilin sentyabr ayında isə Xankəndi şəhərinə köç başlayacaq. Suverenliyimizin bərpasından keçən az müddətdə belə genişmiqyaslı işlərin görülməsi, soydaşlarımızın yüksək rifah şəraitində yaşayışı üçün zəruri imkanların yaradılması dövlətimizin qüdrətini, Azərbaycan xalqının necə qurucu, öz torpaqlarına sahib çıxan xalq olduğunu nümayiş etdirir.

Cənab İlham Əliyevin ailə üzvləri ilə birlikdə 7 fevral - növbədənkənar prezident seçkilərində Xankəndi şəhərində səs verməsi isə tariximizin qürurverici hadisələrindən oldu. Müzəffər Ali Baş Komandan ötən ilin 15 oktyabr tarixində Azərbaycan Bayrağını Xankəndi şəhərində ucaltdıqdan sonra xalqa müraciətində bildirdi: "Bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Yeni hədəflərin gerçəkləşdirilməsi ilə qalib, bütövləşən Azərbaycanın gücü, qüdrəti daha da artır. Cənab İlham Əliyevin sərəncamı əsasında təsdiqlənən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in icrası gələcək inkişafımız üçün olduqca mühüm əhəmiyyətə malikdir.

Yeni Azərbaycan Partiyasının seçki platforması Azərbaycanın 30 ildə qazandığı uğurların və yeni dövrə qədəm qoyan ölkəmizin hədəflərinin təqdimatıdır. Bu hədəflərin reallaşdırılması Azərbaycanın daha möhtəşəm uğurlara imza atmasını şərtləndirəcək. Yeni Azərbaycan Partiyasının seçki platformasında Böyük Qayıdışla əlaqədar əsas hədəflər sırasında işğaldan azad olunmuş ərazilərdə yaşayışın bərpası üçün müasir şəhərsalma konsepsiyası əsasında geniş quruculuq işlərinin davam etdirilməsi, keçmiş məcburi köçkünlərin təhlükəsiz şəraitdə doğma torpaqlarına qayıtmasının və onlara orada layiqli həyat şəraitinin təmin olunması, regionun iqtisadi potensialından səmərəli istifadə olunması və ölkə iqtisadiyyatına reinteqrasiyasının həyata keçirilməsi, xalqımızın milli-mədəni irsinin bərpası, ərazilərdə ekoloji mühitin yaxşılaşdırılması, ekoloji təmiz texnologiyaların tətbiqi ilə ətraf mühitin qorunması, yaşıl enerji potensialından səmərəli istifadə olunması kimi milli məqsədlər qeyd edilib.

Bu mühüm uğurumuzu da qeyd etmək istərdim ki, noyabr ayında Azərbaycan daha bir mötəbər beynəlxalq tədbirə - COP29-a ev sahibliyi edəcək. Ölkəmiz bu tədbirin birlik, həmrəylik tədbirinə çevrilməsi üçün səylər göstərir. Əməkdaşlıq məkanı kimi tanınan Azərbaycanın bu rolunun tarixi Zəfərimizdən sonra daha da artdığı, yeni əməkdaşlıq formatlarının müəllifi kimi çıxış etdiyi diqqətdən kənarda qalmır. Hər bir beynəlxalq əhəmiyyətli tədbirə ev sahibliyi Azərbaycanın nüfuzunu artırır, mövqeyini daha da möhkəmləndirir. Göründüyü kimi, yeni dövrün yeni uğurlarla, zəfərlərlə davam etməsi üçün geniş imkanlar mövcuddur.

**- Malik müəllim, Yeni Azərbaycan Partiyasının namizədi olaraq seçicilərə hansı çağırışı edərdiniz?**

- Ölkəmiz demokratik dəyərlərə sadiqliyini hər zaman atdığı addımlarla təsdiqləyir. Demokratikləşmə prosesini Azərbaycanın hərtərəfli inkişafının əsası kimi dəyərləndirən dövlətimizin başçısı cənab İlham Əliyev qeyd edir ki, əldə edilən uğurlarla kifayətlənməməli, daim irəli baxmalıyıq.

Azərbaycan yeniliyə, təkmilləşməyə açıq ölkədir. Bu baxımdan, 1 sentyabr - növbədənkənar parlament seçkiləri yeni dövrə qədəm qoyan Azərbaycanın bütün sahələrdə davamlı inkişafına böyük töhfə olacaq. Bunun üçün seçicilərlə keçirilən görüşlərdə əsas çağırışımız bu olur ki, səsvermə prosesində fəal olsunlar, ölkəmizdə gedən bütün proseslərin mərkəzində dayanan Yeni Azərbaycan Partiyasına bir daha etimad göstərsinlər.

# Güclü, nüfuzlu və qalib Azərbaycan reallığı...




2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 67 saylı Sabirabad seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Əhliman Əmiraslanovun Sabirabad rayonunda seçicilərlə növbəti görüşü keçirilib.

YAP Sabirabad rayon təşkilatının sədri Varis Rüstəmov son 30 ildə qazanılan uğurlara nəzər salıb. O qeyd edib ki, hazırda qarşıda duran başlıca məqsəd yeni qələbələrə nail olmaqdır. V.Rüstəmov vətəndaşları seçki prosesində fəal iştirak etməyə çağırıb.

Deputatlığa namizəd Əhliman Əmiraslanov YAP-ın seçki platforması barədə məlumat verib. O, Azərbaycanın Heydər Əliyevin yolu ilə inamla irəlilədiyini qeyd edib. Bildirib ki, Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində ölkəmiz güclü, nüfuzlu və qalib dövlətə çevrilib. "Qarşıda duran hədəflərin reallığa çevrilməsi xalqımıza yeni zəfərlər bəxş edəcəkdir", - deyə vurğulanıb.

Görüşdə çıxış edənlər - Elçin Quliyev, Əlvan Əhmədov, Səlmi Mehdiyeva, Məhəmməd Muradov, Güləndam Səmədova və Əlişirin Əliyev YAP-ın məqsədyönlü fəaliyyətindən, əldə edilən uğurlardan və gələcək hədəflərdən danışaraq seçiciləri Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləməyə çağırıblar.



# YAP-ın ölkəmizin ictimai-siyasi həyatında özünəməxsus yeri var



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 39 saylı Gəncə ikinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Pərvin Kərimzadənin YAP Gəncə şəhər təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov bildirib ki, Ulu Öndər Heydər Əliyevin layiqli varisi - Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan uğurla inkişaf edərək bölgənin aparıcı və ən qüdrətli dövlətinə çevrilib.

Deputatlığa namizəd Pərvin Kərimzadə Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığını bildirib. O, Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında özünəməxsus yeri olduğunu deyib: "YAP uğurla fəaliyyət göstərir və Prezident İlham Əliyevin rəhbərliyi ilə müvəffəqiyyətlərə imza atır".

Görüş iştirakçıları Elçin Axundov, Ramil Qasımov, Kənan Qurbanov və digərləri çıxış edərək seçiciləri ölkəmizin parlaq gələcəyi naminə YAP-ın namizədinə səs verməyə çağırıblar.

Qeyd edək ki, deputatlığa namizəd Pərvin Kərimzadə seçicilərlə fərdi görüşlər də keçirib.



# "YAP-a inamımız sonsuzdur!"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 114 saylı Şəki şəhər seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Vüqar İskəndərovun Kiş kəndində seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Şəki rayon təşkilatının sədri Daşqın Mikayılov "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə seçkilərə qatılan YAP-ın seçki platforması haqqında seçicilərə ətraflı məlumat verib. O vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu YAP ölkədə qarşısına qoyduğu vəzifələri uğurla həyata keçirən ən güclü siyasi təşkilatdır: "Partiyamız daim xalqın etimadını doğruldub və uğurlara, qələbələrə imza atıb".





Deputatlığa namizəd Vüqar İskəndərov YAP-ın dövlətçiliyə, milli-mənəvi dəyərlərə sadiqlik mövqeyində dayanmasından, daim xalqın iradəsini ifadə etməsindən bəhs edib.

V.İskəndərov seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və Heydər Əliyev yoluna, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə səs verməyə - Yeni Azərbaycan Partiyasını dəstəkləməyə çağırıb.

Tədbirdə, həmçinin təşviqat qrupunun üzvləri Kamil Məmmədov, Nəriman Səmədov və digərləri çıxış edərək seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

Öz növbəsində seçicilər Kamil Səfərov, Baxşəli Qafarov və digərləri çıxış edərək "YAP-a inamımız sonsuzdur!" deyə vurğulayıblar.

Qeyd edək ki, deputatlığa namizəd Şəki şəhərinin Sarıtorpaq və Otaq eşiyi məhəllələrində də seçicilərlə görüşlər keçirib.

# Seçkilər Azərbaycanın demokratik inkişaf tarixinə yeni uğur səhifəsi kimi yazılacaq



**103 saylı Şəmkir kənd seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Nurlan Həsənov yap.org.az saytına müsahibə verib.**

**- Nurlan müəllim, sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcək. Yeni Azərbaycan Partiyası bu seçkilərə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılıb. Yeni dövrün reallıqları nədən ibarətdir?**

- Seçkilər ötən dövr ərzində qazanılan uğurlara baxış və yeni hədəflərə doğru gedən yolun başlanğıcıdır. Ötən parlament seçkiləri də Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə növbədənkənar keçirildi. Ölkədə geniş vüsət alan islahatlar prosesinin parlamentdə də əksini tapması üçün partiya belə bir təşəbbüslə çıxış etdi. Elə bu faktın özü Yeni Azərbaycan Partiyasının irəli sürdüyü təşəbbüslərin Azərbaycan dövlətinin inkişafına geniş yol açdığını təsdiqləyir. Bu seçkilərlə də əlaqədar YAP eyni təşəbbüslə çıxış etdi. Beləliklə, dövlət başçısı İlham Əliyevin sərəncamı ilə müstəqillik tarixində ilk dəfə olaraq bütün ölkə ərazisini əhatə edəcək növbədənkənar parlament seçkiləri 2024-cü il 1 sentyabr tarixinə təyin edildi. Ötən parlament seçkilərindən keçən dövr ərzində Azərbaycanın, Yeni Azərbaycan Partiyasının həyatında hansı yeniliklərin baş verdiyini partiyanın seçki şüarlarında daha aydın görürük. Ötən parlament seçkilərində YAP "Daha güclü Azərbaycan naminə!" söylədi. Bu seçkilərdə isə "Yeni dövrə Yeni Azərbaycanla!" deyirik. Təkcə bu iki şüarın mahiyyəti, özündə ehtiva etdiyi məna Azərbaycanın, həmçinin Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolunu təqdim edir. 2020-ci il fevralın 9-da keçirilən parlament seçkilərindən indiyədək qazanılan zəfərlər həyata keçirilən siyasətin bugünümüzə və gələcəyimizə xidmət etdiyini təsdiqləyir.

Dövlətimizin başçısı İlham Əliyev 2020-ci ilin martın 10-da altıncı çağırış Milli Məclisin ilk iclasında çıxışı zamanı qanunverici orqanın, deputatların qarşısında dayanan vəzifələri açıqladı. O bildirdi ki, altıncı çağırış Milli Məclis çoxpartiyalı məclisdir: "Bu, çox müsbət əlamətdir. Hesab edirəm ki, siyasi sistemin təkmilləşdirilməsi işində Milli Məclisin çox böyük rolu olacaqdır və olmalıdır".

Ötən parlament seçkilərindən bugünədək Azərbaycanın qazandığı uğurlara diqqət yetirsək, qanunverici orqanın da rolunu görərik. Cəmiyyətin idarə olunmasında, ayrı-ayrı sahələrin inkişafında qəbul olunan yeni qanunların, yaxud mövcud sənədlərin dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsinin rolu böyükdür. Hüquqi baza rolunu oynayan bu sənədlər gələcək inkişafın əsasına çevrilir. Bu məqamı da xüsusi qeyd etməliyik ki, Azərbaycanın demokratik inkişafında ölkəmizdə sabitliyin və qanunun aliliyinin təmin edilməsinin rolu böyükdür. İnsan hüquqlarının qorunması və müdafiə mexanizmlərinin müəyyənlşdirilməsi dövrün tələblərinə uyğun olaraq milli Konstitusiyamıza əlavə və dəyişikliklərin edilməsində özünün aydın ifadəsini tapır. O da məlumdur ki, bu günədək Konstitusiyaya 3 dəfə əlavə və dəyişikliklərin edilməsi məqsədilə ümumxalq səsverməsi keçirilib. Bu əlavə və dəyişikliklərin böyük bir qismi insan hüquqlarının qorunmasına və yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsinə, bir qismi isə idarəçilik sistemində təkmilləşməyə xidmət edir.

Yeni Azərbaycan Partiyasının "Yeni dövrə Yeni Azərbaycanla!" çağırışı əsasında cəmiyyətə təqdim olunan seçki platformasında da əsas diqqət göstərilən sahələrdən biri demokratik islahatlardır. Bu mühüm məqam xüsusi qeyd edilir ki, Azərbaycan xalqının hakimiyyətin yeganə mənbəyi olması, seçkili orqanlara seçkilərin ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə keçirilməsi, əsas insan və vətəndaş hüquq və azadlıqlarının qorunması ölkəmizin demokratik siyasi sisteminin əsaslarını təşkil edir.

Demokratik dəyərlərə sədaqət siyasi sistemin inkişafını təmin edən faktorlardan biridir. Plüralizm, insanların azadlığı və bərabərliyi, ictimai rəyin nəzərə alınması, qanunların aliliyinə riayət olunması YAP-ın fəaliyyətinin siyasi əsaslarıdır. Yeni Azərbaycan Partiyası demokratik ənənələrə mühüm siyasi dəyər kimi yanaşır və onları möhkəmləndirməyi əsas məqsədlərindən biri hesab edir. Partiyanın Proqramında təsbit olunan prinsiplərdən biri demokratik ənənələrin inkişafıdır. YAP öz fəaliyyətində qanunun aliliyi, azadlıq və bərabərlik prinsiplərini əsas götürür, siyasi plüralizmi təşviq edir, siyasi sistemin inkişafına, Azərbaycanın müasir, demokratik və hüquqi dövlət kimi tərəqqisinə layiqli töhfələr verir. Hər zaman demokratik siyasi mühitin və plüralizmin tərəfdarı olan, siyasi sistemin inkişafı istiqamətində ardıcıl fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası bundan sonra da öz imkanlarından və demokratik mühitin üstünlüklərindən maksimum istifadə etməklə məqsədyönlü fəaliyyətini inamla davam etdirəcək, qarşıda duran milli məqsədləri reallaşdıraraq Azərbaycanın inkişafına layiqli töhfələr verəcək.

Bu sahədə əsas hədəflərə gəldikdə isə, qanunun aliliyinin təmin edilməsi, insan və vətəndaş hüquqlarının, söz, fikir və ifadə azadlığının qorunması, demokratik təsisatların güclənməsinə və vətəndaş cəmiyyətinin inkişafına xidmət edən tədbirlərin davam etdirilməsi, dövlət orqan və qurumlarında, özəl sektorda şəffaflığın daha da artırılması üçün ictimai institutlara dəstəyin gücləndirilməsi, demokratik dəyərlərə zidd olan neqativ hallara qarşı mübarizənin sistemli şəkildə davam etdirilməsi, demokratik inkişaf naminə digər siyasi partiyalarla fəal dialoq və konstruktiv əməkdaşlığın davam və inkişaf etdirilməsi prioritetlər sırasındadır.

Prezident İlham Əliyev daim siyasi dialoq mühitinin qorunmasını və təkmilləşdirilməsini qarşıya mühüm vəzifə kimi qoyur. Son illərdə bu sahədə müsbət nəticələr diqqətdən kənarda qalmır. Bu faktı da qeyd edim ki, 1 sentyabr - növbədənkənar parlament seçkilərinə 25 siyasi partiya qatılıb. Bu, demokratiyanın vacib göstəricilərindən biridir.

**- Yeni Azərbaycan Partiyasının seçki platformasında bir çox məsələlərlə yanaşı, müasir çağırışlara cavab verən çoxşaxəli islahatların davam etdirilməsi və dərinləşdirilməsi ilə bağlı vacib məqamlar əksini tapıb. Bununla bağlı nə deyə bilərsiniz?**

- İqtisadi və siyasi islahatların vəhdətinin qorunması ölkəmizin hərtərəfli inkişafında başlıca amildir. Azərbaycan daim yeniləşməyə, təkmilləşməyə xüsusi önəm verir. Partiyanın seçki platformasında qeyd edildiyi kimi, Heydər Əliyev yolunu uğurla və inamla davam etdirən Prezident İlham Əliyev 2018-ci ildə keçirilmiş prezident seçkilərindən sonra andiçmə mərasimində yeni islahat dalğasının anonsunu vermişdi. Qısa müddət ərzində çoxşaxəli institusional və struktur islahatları idarəetmənin səmərəliliyi və çevikliyini təmin etməklə yanaşı, vətəndaş məmnunluğuna, milli həmrəyliyin güclənməsinə, bütövlükdə Azərbaycan dövlətinin milli gücünün artmasına etibarlı zəmin yaratdı. Ölkə həyatının bütün sahələrində həyata keçirilən islahatların cəmiyyət tərəfindən təqdirlə qarşılanması Prezident İlham Əliyevin güclü dövlət konsepsiyasının uğurla reallaşdığını təsdiqləyir.

Möhkəm təməl artıq uğurlarla zəngin bir mərhələdən yeni dövrə qədəm qoymağa yol açdı. Günümüzün əsas çağırışları sırasında yeni dövrün hədəflərini gerçəkləşdirmək mühüm yer tutur. Yeni Azərbaycan Partiyasının seçki platformasında qeyd olunduğu kimi, müasir mərhələdə islahatların dərinləşdirilməsi qarşıda duran əsas vəzifələrdən biridir. Bu islahatlar iqtisadi idarəetmənin köklü səviyyədə müasirləşməsinə, inkişafın yeni hərəkətverici qüvvələrinin təşəkkül tapmasına və hər bir Azərbaycan vətəndaşının rifahının yüksəlməsinə zəmin yaradacaq. Azərbaycanın islahatlar yolu ilə inkişafı istiqamətində əsas hədəflər idarəetmədə çeviklik və effektivliyin artırılması məqsədilə institusional və struktur islahatlarının davam etdirilməsi, yüksək dövlətçilik şüuruna malik, milli-mənəvi dəyərlərə sadiq, azərbaycançılıq ideologiyasını, müasir bilik və bacarıqları mənimsəmiş intellektual kadrların yetişdirilməsi və idarəetmənin müxtəlif sahələrində irəli çəkilməsi, siyasi sistemin inkişaf etdirilməsi və yeni siyasi konfiqurasiyanın möhkəmləndirilməsinə yönəlik təşəbbüslərin reallaşdırılması və məmur-vətəndaş təmasının minimuma endirilməsidir.

**- Nurlan müəllim, Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi olaraq keçirdiyiniz görüşlər zamanı seçicilərdə hansı əhval-ruhiyyəni görürsünüz və onlara çağırışınız nədən ibarətdir?**

- Yeni dövrün əsas reallığı dövlət suverenliyimizin tam bərpa olunmasıdır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə bir günlük antiterror tədbirləri nəticəsində qazandığımız möhtəşəm qələbələr Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasını və üçrəngli Bayrağımızın işğaldan azad edilmiş bütün ərazilərimizdə ucaldılmasını təmin etmişdir. Bütün ölkə ərazisi üzrə parlament seçkilərinin keçirilməsi qürurvericidir.

Yeni hədəflər yeni çağırışlarla tamamlanır. Bu seçkilər ölkəmiz üçün yeni müvəffəqiyyətlər vəd edir və Azərbaycanın demokratik inkişaf tarixinə yeni uğur səhifəsini yazacaq.

Bu gün insanlarda xoş ovqatın şahidiyik. Yeni Azərbaycan Partiyası seçkilərə böyük qələbə əzmi ilə qatılıb. Bütün seçiciləri seçkilərdə fəal iştirak etməyə və dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə, birlikdə növbəti zəfərlərə doğru inamla addımlamağa çağırıram. Səsimizlə dəstək olaq, Yeni dövrün Yeni Azərbaycanının uğur və qələbələrinə töhfələr verək!

# "Şanlı qələbələrlə başlayan yeni dövr möhtəşəm nailiyyətlərlə davam edəcək!"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 30 saylı Suraxanı birinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Sevinc Fətəliyevanın seçicilərlə görüşü keçirilib.

YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov qeyd edib ki, zamanın tələbi, xalqın istəyi ilə yaranan və qısa müddətdə ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının bütün uğurlarının arxasında xalqın inamı və bu inamdan irəli gələn dəstək dayanır.

Deputatlığa namizəd Sevinc Fətəliyeva əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün Prezident İlham Əliyevin müvəffəqiyyətlə davam etdirdiyi siyasətin uğurlarından geniş bəhs edib. O bildirib ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin milli gücünün artmasını təmin edib. "Bu zamana qədər Azərbaycanın yüksəlişində müstəsna rol oynamış Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizin inkişafına - mühüm nailiyyətlərin əldə edilməsi və yeni hədəflərin reallaşmasına layiqli töhfələr verəcəkdir. Şanlı qələbələrlə başlayan yeni dövr möhtəşəm uğurlarla davam edəcək", - deyə Sevinc Fətəliyeva vurğulayıb.

Görüşdə təşviqat qrupunun üzvü Arif Babayev, gənc partiya fəalı Məhəmmədəli İsmayılov, seçici Leyla Bağırova və digərləri çıxış edərək YAP-ın daim xalqın mənafeyini qoruduğunu söyləyiblər. "Yeni Azərbaycan Partiyası ölkəmizə yeni qələbələr qazandıracaq", - deyə vurğulanıb.



# "İslahatlar davamlıdır"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 87 saylı Qobustan-Şamaxı-İsmayıllı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Rasim Novruzovun Qobustan rayonu, Nabur kənd seçiciləri ilə görüşü keçirilib.

YAP Qobustan rayon təşkilatının sədri Qasım Qasımov Prezident İlham Əliyev tərəfindən verilən bütün vədlərin yerinə yetirildiyini, torpaqlarımızın işğaldan azad olunduğunu, dövlət suverenliyinin tam bərpa edildiyini vurğulayıb. Qeyd olunub ki, Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan dünyada söz və nüfuz sahibi, qalib və qüdrətli ölkə kimi tanınır.

Deputatlığa namizəd Rasim Novruzov YAP-ın seçki platforması barədə məlumat verib. O bildirib ki, Heydər Əliyev tərəfindən irəli sürülmüş müstəqil dövlətin təməl prinsipləri - dövlətçilik, qanunun aliliyi, azərbaycançılıq, varislik və təkamül, konstruktiv əməkdaşlıq və vətəndaş həmrəyliyi, sosial ədalət çoxşaxəli islahatların əsaslarını təşkil edib və ölkənin dinamik inkişafını şərtləndirib: "Prezident İlham Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycanın dünyada nümunəvi inkişaf modeli ilə fərqlənən güclü dövlətə çevrilib. Yeni mərhələdə davam etdirilən islahatlar iqtisadi idarəetmənin köklü səviyyədə müasirləşməsinə, hər bir Azərbaycan vətəndaşının rifahının yüksəlməsinə zəmin yaradacaq".

Təşviqat qrupunun üzvlərindən Atabəy Cahangirov, Allahyar Atakişiyev və seçicilərdən Akif Hacıyev çıxış ediblər. Onlar ölkəmizdə aparılan abadlıq-quruculuq işlərindən, xalqın sosial rifahına yönəlmiş layihələrdən söhbət açaraq seçiciləri yeni uğurlar və qələbər naminə YAP-ı dəstəkləməyə çağırıblar.



# "Hədəflərin reallaşdırılması yeni zəfərlərə yol açacaq"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 14 saylı Xəzər-Pirallahı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Vüsalə Rəsulovanın YAP Xəzər rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.



YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov bildirib ki, Milli Məclisə keçiriləcək seçkilər xalqın Yeni Azərbaycan Partiyasına inamının növbəti ifadəsi olacaq. O, YAP-ın qazandığı nailiyyətlərə nəzər salıb, qarşıda duran hədəflərdən bəhs edib.

Deputatlığa namizəd Vüsalə Rəsulova seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və birlikdə növbəti zəfərlərə doğru inamla addımlamağa çağırıb. Bildirib ki, ölkəmizdə dövlət idarəçiliyinin səmərəliliyi və vətəndaş məmnunluğu artırılıb, Azərbaycan dünyada müstəqil siyasət yürüdən, özünəməxsus inkişaf yolu olan islahatçı ölkə imici qazanıb: "Bu gün işğaldan azad edilmiş ərazilərdə nəhəng quruculuq işləri aparılır. Bütün bunlar milli qürur mənbəyimizdir. Heç şübhəsiz, yeni hədəflərin reallaşdırılması yeni qələbələrə yol açacaqdır. Ona görə də daim irəliyə baxmalıyıq".



Tədbirdə seçicilər Səkinəxanım Həsənli, Nigar Cəlilova, Fidan Əsədzadə və digərləri çıxış ediblər. Bildirilib ki, YAP-ın namizədlərinə veriləcək səslər Azərbaycanın qüdrətinin daha da artmasına xidmət edəcək.

Natiqlər uğurlarımızın davamı naminə seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



Avqustun 27-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın avqustun 22-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 125 saylı Zəngilan - Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd barədə məlumatın seçki dairəsinin məntəqə seçki komissiyalarının məlumat lövhələrində yerləşdirilməsi məsələsinə baxılıb. Bildirilib ki, sözügedən seçki dairəsi üzrə qeydə alınmış namizəd Nəsiman Qara oğlu Yaqublu cari il avqustun 25-də yol-nəqliyyat hadisəsi nəticəsində vəfat edib. Eyni zamanda, diqqətə çatdırılıb ki, seçki bülletenləri qanunvericilikdə nəzərdə tutulan müddətdə çap olunaraq seçki dairələrinin dairə seçki komissiyalarına çatdırılıb. Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin tələblərinə əsasən, yuxarıda göstərilənlərə dair müvafiq məlumatın seçki dairəsinin məntəqə seçki komissiyalarının məlumat lövhəsində yerləşdirilməsinə qərar verib və qərarın icrası 125 saylı Zəngilan - Qubadlı seçki dairəsinin dairə seçki komissiyasına həvalə olunub.

İclasda qarşıdan gələn seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətə də baxılıb. Beynəlxalq müşahidə missiyası təmsilçiləri, media mənsubları və maraqlı subyektlərin bilavasitə iştirakı ilə komissiya üzvlərinin geniş müzakirəsi nəticəsində, vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün müraciətlə bağlı qanunvericiliyin tələblərinə uyğun müvafiq qərar qəbul edilib.

İclasın sonunda, həmçinin cari məsələlərə baxılıb.

# Qeydə alınan yerli müşahidəçilərin sayı 111 min 200-ə çatıb

Sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar 604 nəfər beynəlxalq müşahidəçi qeydiyyatdan keçib.



"Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) avqustun 27-də keçirilən iclasında qurum sədri Məzahir Pənahov deyib.

Komissiya sədri bildirib ki, beynəlxalq müşahidəçilərin 227 nəfəri ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun müşahidəçiləridir.

"111 min 200-ə yaxın yerli müşahidəçi qeydə alınıb. 25 siyasi partiyanın 65 minə yaxın müşahidəçisi qeydiyyatdan keçib", - deyə MSK sədri bildirib.

# "Milli maraqlara əsaslanan siyasət Azərbaycana tarixi qələbələr qazandırıb"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 86 saylı Ağcabədi seçki dairəsindən namizədliyi irəli sürülmüş Tahir Rzayevin seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov bildirib ki, qüdrətli Azərbaycan Heydər Əliyev ideyaları əsasında - Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə milli məqsədləri gerçəkləşdirərək yeni reallıqlar yaradıb. "Yeni dönəm xalqımıza rifah, ölkəmizə inkişaf və tərəqqi vəd edir", - deyə vurğulanıb.

Deputatlığa namizəd Tahir Rzayev YAP-ın seçki platforması barədə məlumat verib. O qeyd edib ki, Azərbaycan son 30 ildə tarixi uğurlar qazanaraq dinamik inkişaf edən, nüfuzlu və qalib dövlətə çevrilib: "Milli maraqlara əsaslanan siyasət Azərbaycana tarixi qələbələr qazandırıb. Hazırda qarşımızda dayanan başlıca məqsəd növbəti milli hədəflərimizin gerçəkləşdirilməsidir. Siyasi sabitliyin və milli birliyin qorunması, davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, əhalinin rifahının daha da yaxşılaşdırılması, tarixi Zəfərimizin beynəlxalq müstəvidə tam və qəti şəkildə təsbit olunması, dövlətimizin hərbi qüdrətinin daha da artırılması, Böyük Qayıdış Proqramının ardıcıl olaraq və zamanında həyata keçirilməsi, regionda dayanıqlı sülhə, etibarlı təhlükəsizliyə, çoxşaxəli əməkdaşlığa nail olunması və digər hədəflər xüsusi əhəmiyyət kəsb edir".

Görüşdə təşviqat qrupunun üzvləri Sevinc Quliyeva, Nüşabə İbrahimova və digərləri çıxış edərək Azərbaycanın əldə etdiyi möhtəşəm uğurlardan və keçiriləcək seçkilərin əhəmiyyətindən bəhs ediblər.

Seçicilərdən Məhbubə Əliyeva, Bahar Əliyeva, İbadət Ağayev və başqaları parlament seçkilərində fəal iştirak edəcəklərini və YAP-ın namizədinə səs verəcəklərini deyiblər.



# "Azərbaycanın qüdrəti daha da artacaq!"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 53 saylı Yevlax-Mingəçevir seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Əli Hüseynlinin YAP Yevlax rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

YAP Yevlax rayon təşkilatının sədri Rafiq Əliyev Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatındakı aparıcı rolundan danışıb. O, sentyabrın 1-də keçiriləcək seçkilərin xalqın YAP-a inamının növbəti ifadəsi olacağını vurğulayıb: "YAP xalqın etimadını doğrultmuş partiyadır".



Deputatlığa namizəd Əli Hüseynli YAP-ın seçki platforması barədə məlumat verib. O vurğulayıb ki, partiya yarandığı gündən ölkədə həyata keçirilən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf prosesində fəal rol oynayıb, müstəqil Azərbaycanın tərəqqisinə öz töhfələrini verib. "Qarşıda duran hədəflər də uğurla reallaşdırılacaq, Azərbaycanın qüdrəti daha da artacaq", - deyə qeyd olunub.

Çıxış edən seçicilər vurğulayıblar ki, yeni dövrə yeni Azərbaycanla birgə addımlamaq üçün seçkilərdə fəal olacaq və Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklər.

# "Partiyamız daim milli iradənin ifadəçisi olacaq"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 5 saylı Babək-Naxçıvan-Culfa seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Ülviyyə Həmzəyeva Naxçıvan şəhəri, Qaraçuq və Tumbul kəndlərində seçicilərlə görüşlər keçirib.

Ülviyyə Həmzəyeva əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası öz fəaliyyətində milli maraqları üstün tutur, xalqa şərəflə və ləyaqətlə xidmət edir: "Ulu Öndərimiz Heydər Əliyevin siyasi mirası olan, onun ideyaları əsasında fəaliyyətini uğurla davam etdirən, Prezident İlham Əliyevin sədrliyi ilə mühüm nailiyyətlər qazanan Yeni Azərbaycan Partiyası Azərbaycanın tərəqqisinə önəmli töhfələr verir. Partiyamız bundan sonra da xalqın iradəsinin ifadəçisi olacaq".

Deputatlığa namizəd Ülviyyə Həmzəyeva seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

Seçicilər - Şahzadə Əliquliyeva, Arifə Əliyeva, Nümunə Məmişova və digərləri YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.



# "Bütün hədəflər gerçəkləşdiriləcək"




2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 50 saylı Abşeron üçüncü seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Ramid Namazovun YAP Abşeron rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev Azərbaycanın hər dövrün çağırışlarından irəli gələn vəzifələri yüksək səviyyədə yerinə yetirərək növbəti hədəfləri müəyyənləşdirdiyini bildirib.

Deputatlığa namizəd Ramid Namazov YAP-ın seçki platforması barədə məlumat verib. O qeyd edib ki, Heydər Əliyev irsini müasir çağırışlara uyğun zənginləşdirərək varislik prinsipi əsasında uzaqgörən və məqsədyönlü siyasət həyata keçirən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ölkəmizə misilsiz tarixi nailiyyətlər qazandırıb. Vurğulanıb ki, əldə olunan uğurların zirvəsini Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpa olunması təşkil edir.

R.Namazov YAP-ın seçki platformasında əksini tapan hədəflərin xalqın dəstəyi ilə həyata keçiriləcəyini bildirib.

Çıxış edən təşviqat qrupunun üzvləri seçiciləri fəal olmağa, yeni uğurlara imza atmaq üçün YAP-ın namizədinə səs verməyə çağırıblar.

Qeyd edək ki, Ramid Namazov Abşeron rayonu, Fatmayı kəndində və Mehdiabad qəsəbəsində də seçicilərlə görüşlər keçirib.



# "Mövcud reallıqlar xalqın seçiminin doğru olduğunu göstərir"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 29 saylı Sabunçu dördüncü seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş İlahə Abdullazadənin seçicilərlə görüşü keçirilib.

YAP Sabunçu rayon təşkilatının sədr müavini Zülfüqar Cəfərov bildirib ki, Azərbaycanın bugünkü inkişafı - ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlik, düşmən üzərində qazanılan tarixi Zəfər və digər mühüm nailiyyətlər xalqın seçiminin doğru olduğunu göstərir.

Deputatlığa namizəd İlahə Abdullazadə YAP-ın seçki platforması haqqında məlumat verib. O, Yeni Azərbaycan Partiyasının böyük uğurlara imza atdığını və qarşıda duran hədəfləri gerçəkləşdirmək əzmində olduğunu söyləyib: "Bu gün sıralarında 700 mindən çox insanı birləşdirən YAP gücünü xalqın dəstəyindən alır. Qarşıdan gələn parlament seçkilərində partiyamızın möhtəşəm qələbə qazanacağı heç kimdə şübhə doğurmur".

İ.Abdullazadə çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

Seçicilər 1 sentyabr - növbədənkənar parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.



# “123-cü Saziş” - yeni təhdid, nüvə qarşıdurması...

## Sazişə qoşulmaq üçün müraciət edən İrəvan müttəfiqinə yenidən xəyanət edir

**Ermənistan Amerika Birləşmiş Ştatlarından mülki nüvə texnologiyasına çıxış üçün müraciət edib. Bununla bağlı ABŞ Dövlət Departamentinin mətbuat katibinin CivilNet-ə verdiyi yazılı şərhdə bildirilib ki, Vaşinqton Ermənistanın “123-cü Saziş”ə qoşulmaq üçün müraciətini öyrənir. Bu müraciət təsdiq olunacağı təqdirdə Ermənistan Amerikanın mülki nüvə texnologiyasını ala biləcək. ABŞ federal qanunlarına əsasən, hökumət mülki nüvə texnologiyasının digər ölkələrə ötürülməsi üçün lazımi şərtləri müəyyən edən ABŞ Atom Enerjisi Agentliyi Aktının 123-cü maddəsini imzalamalıdır. Dövlət Departamentinin 2022-ci il məlumatlarına görə, ABŞ-ın 48 ölkə və ərazi ilə oxşar müqavilələri var. “Əgər müraciət müsbət cavablandırılarsa, Ermənistan Amerikanın mülki nüvə texnologiyasını əldə edə biləcək”, - ABŞ Dövlət Departamentinin İrəvanın müraciəti ilə bağlı şərhində deyilir.**

### Qızıl standartlı 123-cü saziş...

Qeyd edək ki, “123-cü Saziş” öz adını Amerika Atom Enerjisi Aktının maddə nömrəsindən alıb. “123-cü Saziş”ə qoşulmaq ABŞ Prezidenti tərəfindən təsdiq edilir. Bundan sonra isə o qərar ABŞ Konqresi tərəfindən ratifikasiya edilməlidir, sonra isə müvafiq şərtlərlə əməkdaşlıq sazişi imzalanır. Vaşinqton İrəvanla bu məsələ barədə danışıqlar prosesinin təfərrüatlarını gizli saxlayır. Lakin “demək olar ki, Dövlət Departamenti Ermənistanın sazişə qoşulmaq istəyinə lazımi diqqət yetirir və bu sahədə əməkdaşlığın dərinləşdirilməsi imkanlarını alqışlayır.

Xatırladaq ki, ABŞ-ın 1954-cü ildə qəbul olunan Atom Enerjisi Aktının “Başqa Millətlərlə Əməkdaşlıq” başlığa altında tövsif edilən 123-cü maddə ABŞ və hər hansı digər dövlət arasında nüvə sazişləri üçün ilkin şərt kimi əməkdaşlıq müqaviləsi sayılır. Obama administrasiyası tərəfindən 2009-cu ildə Birləşmiş Ərəb Əmirlikləri ilə imzalanmış 123-cü müqavilə “123 Sazişi”nin “qızıl standartı” adlandırılır.

### Ermənistan Metsamor AES-i borc qarşılığında təhvil vermişdi

Ermənistanın sazişə qoşulması isə bölgədəki onsuz da yüksək sayılan emosiyaları daha da artıra bilər. Bu amil regiondakı güc balansına təsirsiz ötüşməyəcək - çünki Metsamor AES ilə bağlı məsələ illərdir ki, Rusiya ilə tənzimlənir. Bu AES Rusiyanın köhnə VVER-440 reaktoru ilə təchiz edilən iki enerji blokundan ibarətdir. Hər blokun istilik gücü 1375 MVt, elektrik enerji gücü isə 440 MVt-dır. Mövcud təhlükəsizlik problemlərindən dolayı enerji blokunun 1995-ci ildə yenidən işə salınmasından sonra enerji blokunun enerji gücü nominal gücün 92 faizə qədər məhdudlaşdırılmışdı, yəni enerji blokunun icazə verilmiş istilik gücü 1240 MVt-dan (və ya elektrik gücü 375 MVt-dən) çox olmamalı idi. İrəvanın Moskvaya uran yanacağına görə yaranan 53 milyon dollarlıq borcu müqabilində AES-in idarə edilməsi 2003-cü ildə Rusiyanın İnter RAO şirkətinə həvalə edildi.  Stansiyanın idarə edilməsi 2012-ci ildə yenidən Ermənistan dövlətinin nəzarətinə keçdi. Qeyd edək ki, 1989-cu ilə qədər stansiyada istifadə olunmuş nüvə yanacağı qalıqları o zamankı RSFSR-ə aparılırdı. Sonradan meydana gələn bütün yanacaq tullantıları Metsamor AES-də Fransanın AREVA şirkəti tərəfindən tikilmiş xüsusi saxlama anbarında, istifadə olunmayan ilk enerji blokunun reaktorunda, həmçinin yanacaq saxlanma hovuzunda saxlanılırdı.

### Metsamor AES siyasi oyun predmetinə çevrilir



### Moskvadan Vaşinqtona uzanan erməni hiyləgərliyi...

Metsamor AES-in ilkin istismar müddəti dizayna əsasən 2016-cı ildə başa çatıb. Ermənistan hökuməti stansiyanın ikinci blokunun təmir vasitəsilə istismar müddətini 10 il daha, 2026-cı ilə qədər uzatdı. Metsamor AES-in təmirinin maliyyələşdirilməsi barədə razılaşma isə Ermənistan və Rusiya arasında 2014-cü ildə imzalanıb. Ermənistan Rusiya hökumətindən alınmış maliyyə ilə Metsamor AES-də yenilənmə işləri həyata keçirməyə başladı - Rusiyadan alınmış bu maliyyəyə isə 15 illik müddətə verilən 270 milyon dollar kredit və 30 milyon dollar qrantdan ibarət idi. Lakin sonradan Ermənistan təmir müddətinin uzadılması üçün əlavə kreditdən imtina edərək bunu daxili resurslar hesabına maliyyələşdirmək qərarına gəldi. Rusiyanın “Rosatom” şirkətinin idarəetməsi altında olan “Rosatom Servis” şirkəti atom stansiyasının əsaslı təmirini həyata keçirən baş podratçı şirkət idi. Təmir əsasında 2018-ci ildə başlayan AES-dəki təmirdə generatorlu turbinləri dəyişdirildi - amma bu da Metsamor AES-in təhlükə mənbəyi olmasının qarşısını ala bilmədi. Ermənistanın hazırda apardığı “kompaniya” isə bölgəsəl siyasi qarşıdurmaları daha da körükləmək xarakteri daşıyır. Çünki ABŞ-ın Ermənistanın müraciətini müsbət qarşılayacağı təqdirdə sovet dövründə tikilmiş AES əvəz ediləcək və Amerika texnologiyasından istifadə etməklə Ermənistanda yeni atom elektrik stansiyasının layihələndirilməsinə və tikintisinə başlanılacaq. Xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyan 2023-cü ilin noyabrında bəyan etmişdi ki, Ermənistanın qarşısında yeni AES bloku tikmək vəzifəsi durur və məsələ ilə bağlı Rusiya, ABŞ və Cənubi Koreya ilə danışıqlar aparılır. Deməki ki, İrəvan hər zaman olduğu kimi bölgəsəl qarşıdurmadan öz maraqları üçün istifadə etməyi qərara alıb.

### AES tikintisi, yoxsa siyasi “cığallıq”...

Avqustun əvvəlində Ermənistanın Nazirlər Kabineti Metsamor Atom Elektrik Stansiyasını əvəz edəcək yeni atom enerji blokunun tikintisi üçün dövlət şirkəti yaradıb. Gözlənilirdi ki, yaxın iki il ərzində şirkət yeni AES-in hansı ölkənin texnologiyası və hansı gücdə tikiləcəyi ilə bağlı öz proqramını təqdim edəcək - amma son baş verənlər artıq bu məsələni də gündəmdən çıxarır. Ermənistan özünün çətirini dəyişməklə yenidən atom təhlükəsi formalaşdırır. Burada əsas amillərdən biri isə bölgədəki sülh prosesinə mane olmaqdır. Bəllidir ki, Azərbaycan COP29-a ev sahibliyi etməklə həm də qlobal diqqətin Cənubi Qafqaza yönlənməsinə nail olur. Ermənistanın ekoloji fəlakət yaratmaq üçün ortaya qoyduğu cəhdlər isə paralel olaraq həm də siyasi “cığallıq”la müşayiət olunur. Ermənistan AES tikintisi məsələsi ilə regionda sülh üçün aparılan ardıcıl siyasəti tormozlayır - eyni zamanda, yenidən qonşuları ilə münasibətdə mənfi çalarlara üstünlük verdiyini ortaya qoyur. Nəticə etibarı ilə, Ermənistanın tutduğu mövqe sülhdən çox qarşıdurmaya aparan amil kimi xarakterizə olunur.

*P.İSMAYILOV*

# Tanrının qoşduğu Yusif dastanı

## Tomas Mannın “İosiflə qardaşları” roman-tetralogiyası haqqında

Bu mövzuda böyük bir əsər yazmağı hələ on doqquzuncu əsrin əvvəllərində dahi alman şairi, Tomas Mannın kumiri İohan Volfqanq Höte arzulayırdı. Memuarlarında dediyinə görə, belə parlaq dini rəvayətə Əhdi-Ətiqdə çox yığcam yer verilməsi özü də din içində din bəsləmiş Höteni məyus eləyər, onda Yusif peyğəmbər qissəsinin görünməyən tərəflərini qələmə almaq istəyi yaradarmış. Ancaq nədənsə tarixin ən böyük üç almanından birinə bu arzu müyəssər olmayıb. Gözəl İosif öz tərcümeyi-halının bütün təfərrüatıyla yazılmasını daha yüz il gözləyəsi olub.

Romanın ideyası müəllifin ağlına 1926-cı ildə Münhendə gəlmişdi. Tövratın “Varlıq” adlı ilk bölümündə yer almış dastanı bir daha gözdən keçirən Tomas Mann qəlbində həmin dastanda nağıl olunan əhvalatları daha geniş, daha yerli-yataqlı danışmaq arzusunun baş qaldırdığını hiss eləmişdi. Əsərin ilk iki hissəsi elə orada qələmə alınmışdı. 1933-cü ildə faşistlər hakimiyyətə yiyələnəndən sonra ölkədən çıxmağa məcbur qalan yazıçı romanın əlyazmasını özüylə apara bilməmişdi, bu işin öhdəsindən canını riskə atmaq hesabına onun böyük qızı gəlmişdi. Üçüncü kitab İsveçrədə, dördüncü kitabsa Amerikada yazılmışdı. Bu minvalla yazıçı romanı yalnız 1943-cü ildə, yazmağa başladığından azı on yeddi il sonra tamamlamışdı.

Tomas Mannın Qərb modernizminin bayraqdarlarından olduğunu bilən nabələd oxucu bu romanda modern Avropa nəsrinə xas dekadentizm, demonizm, postmodern ironiya, dekonstruksiya, nihilizm, pessimizm, nə bilim, daha nələr, nələr... axtara bilər. Zəhmət çəkib axtarmasın, tapmayacaq. Müəllif bu əsərdə vur-tut qədim dini rəvayəti, mistik dastanı çağdaş ədəbi alətlərin köməyilə, modernist üslubda yenidən yazıb, yəni Bibliya mətninin ruhunu müasir metodla təzədən vücuda gətirib. Adama elə gəlir, bu kitabı üç min beş yüz il bundan qabaq yaşamış salnaməçi, kahin, yaxud peyğəmbər qələmə alıb, o dövrün ictimai, iqtisadi, məişət gerçəkliklərini olduğu kimi yazıya köçürüb, sonradan bu kitab ölü dildən diri dilə çevrilib. Nəticədə qədim əcdadların həyatını dəqiq təsvir eləyən modern üslublu realist əsər alınıb.

Beləcə, təxminən iyirmi-otuz səhifəlik Tövrat rəvayəti həcmi iki min səhifəyə yaxın nəhəng romana qədər böyüyüb genişlənib. Bir proloq, dörd bölümdən ibarət bu romanı janr baxımından roman-tetralogiya (dördlük) da adlandıranlar var, roman-epopeya da. Elə bunu demək yetər ki, əsərin təkcə proloqunun həcmi əlli səhifədən çoxdur.

***

Nobel mükafatını iyirmi beş yaşında tamamladığı “Buddenbroklar” romanına görə alsa da, bu əsər onun yaradıcılığının erkən (özünün dediyi kimi, həm də keçilmiş - “sosial-kritik”) mərhələsi sayılır. Yetkin Tomas Mann ən çox fəlsəfi romanlarıyla tanınır. Bəzi mütəxəssislər 1924-cü ildə yazdığı “Sehirli dağ” romanını, bəziləri də 1947-ci ildə (yenə Hötedən bəhrələnməklə) qələmə aldığı “Doktor Faustus” romanını onun şah əsəri hesab eləyir. Yazıçı özü isə “İosiflə qardaşları” tetralogiyasını özünün ən yaxşı əsəri sayırdı. Romanın intellektual bünövrəsi, müəllifin dini-konfessional, mifik-fəlsəfi, tarixi-etnoqrafik bazasının dərinliyi, genişliyi insanda heyrət doğurur. Bəllidir ki, Tomas Mann Yaxın Şərqin, Misirin qədim tarixiylə lap uşaqlığından maraqlanıb, əsəri yazmaq ərəfəsində yəhudi həyat yoldaşıyla birgə qəhrəmanlarının bir zamanlar gəzdiyi torpaqları ziyarətə gedib.

Xristianların İosif, müsəlmanların Yusif adlandırdığı yəhudi peyğəmbərinin qissəsi yüz illər boyu həm Qərbdə, həm də Şərqdə dillər əzbəri olub. Dastanın müsəlman versiyası yəhudi-xristian variantından azacıq fərqlənsə də, mahiyyətcə çox seçilmir. Hər iki sivilizasiyada İosif gözəllik, düzgünlük, sədaqət rəmzi sayılıb. Müsəlman dünyasında bu peyğəmbər haqqında rəvayətin nə qədər populyar olduğunu vurğulamaq üçün Quranın “Yusif” surəsini, Əbdürrəhman Caminin “Yusif və Züleyxa” poemasını, İran kinematoqrafçılarının çəkdiyi “Yusif” serialını yada salmaq kifayətdir. Göründüyü kimi, Tomas Mannın girişdiyi mövzu yüz illərin də yox, min illərin sınağından keçib. Müsəlman ləhcəsiylə desək, Yaqubun oğlu, İshaqın nəvəsi, İbrahimin nəticəsi olan yəhudi peyğəmbərinin doğum-ölüm tarixləri dəqiq bilinməsə də, pravoslav-xristian ənənəsinə görə, onun miladdan təxminən on səkkiz əsr öncə yaşadığı güman olunur. Bu hesabla Yusifi bizdən az qala dörd min illik bir zaman uçurumu ayırır.

“İosiflə qardaşları” romanına müəllifinin yaşadığı dövrə, nəfəs aldığı mühitə tamam yad-yabançı olan qatı humanizm, sarsılmaz bir optimizm xasdır. Avropada, Uzaq Şərqdə faşizmin tüğyan elədiyi, sivilizasiyanın göbəyində repressiyaların, savaşların insanı qarışqa yerinə qoymadığı zamanda tarixə, gələcəyə bunca nikbin baxmaq üçün yazıçının heç bir şərin kirlədə bilməyəcəyi saf əqidəsi, haqqa, ədalətə, ilahi qanunların təntənəsinə şübhədən arınmış sabit inamı, öz tanrısına, həqiqətinə sözsüz-sovsuz tapınan dəmir iradəsi olmalıdır. Tomas Mann bu dəyərlərin daşıyıcısı olduğunu təkcə bədii yaradıcılığıyla yox, İkinci Dünya müharibəsinin şıdırğı vaxtlarında soydaşlarına ünvanladığı çıxışları, ictimai fəaliyyətiylə də sübuta yetirmişdi. Bu, həmin dövr idi ki, şərə qarşı vuruşub-vuruşmadığından asılı olmayaraq Avropa şairlərinin, yazıçılarının, filosoflarının mütləq əksəriyyətinin ürəyindən də, qələmindən də qara qanlar axırdı, beş-on fikir adamını çıxmaq şərtiylə heç kimsənin Allaha, insana, gələcəyə ümidi qalmamışdı.

***

Romanın qəhrəmanı İosifin həyatı əvvəlcə Misir fironu III Amenxotepin, sonra da onun oğlu, tarixdə Exnaton adıyla tanınmış IV Amenxotepin hakimiyyətdə olduğu illərə - təqribən miladdan öncə on dördüncü yüzilliyə düşür. Göründüyü kimi, müəllif personajlarının yaşını pravoslav kilsəsinin güman (həm də qəbul) elədiyi dövrdən dörd əsr bəri çəkməklə onları dörd yüz il cavanlaşdırıb.

Əsər “Cəhənnəmə eniş” adlı on fəsillik proloqla başlayır. Bu giriş ayrılıqda dini-fəlsəfi-tarixi traktat da sayıla bilər. Proloqda müəllif həyatın, insanın, dünyanın mənşəyi haqqında mülahizələr irəli sürür, keçmiş, gələcək, əbədiyyətlə bağlı düşüncələrə dalır, insan ruhunun Tanrıyla münasibətini araşdırır. Xatırlayırsınızsa, belə dini-fəlsəfi ricətlərə Hüqonun, Tolstoyun, Dostoyevskinin romanlarında da rast gəlmişdik. Tomas Mann mahiyyətcə peyğəmbər xislətli, mistik təfəkkürlü bu böyük missionerlərin iyirminci əsrdə yazıb-yaratmış davamçısıdır; ya da belə deyək: tək-tək davamçılarından biridir.

Ümumiyyətlə, aşağı-yuxarı yaşdaşı olan bir sıra dünya şöhrətli modernist yazıçı kimi Tomas Mannın da fəlsəfi romanlarında (o cümlədən tetralogiyasında) traktat (eləcə də poeziya) elementləri bəs deyincədir. Həm o səbəbdən, həm də üslubunun mürəkkəbliyi üzündən bu romanları oxumaq elə də asan deyil. “İosiflə qardaşları”nın da proloqunda bəlkə yüzlərlə xüsusi isim, yüzlərlə ad (yer adları, şəxs adları, tarixi, mifik adlar, göy cisimlərinin, bürclərin, tanrıların adları...) çəkilir - gəl bunların hamısını yaddaşında saxla görüm, necə saxlayırsan. Yadda saxlamaq bir yana, mətləbi qanmaq üçün bu adların hər birinin daşıdığı mənadan xəbərdar olmalısan, ya da oxu prosesində onların mənasını axtarıb tapmalısan. Odur ki, girişdəki on fəsli oxuyub başa vurmaq oxucudan səbir, hünər istəyir.

Proloqun ardınca romanın hissələri gəlir:

1. İakovun keçmişi;
2. Gənc İosif;
3. İosif Misirdə;
4. Ruzi paylayan İosif.

Hər hissə yeddi bölməyə, hər bölmə də özlüyündə fəsillərə ayrılır. Hissələrlə yanaşı, hər bölmənin, hər fəslin də ayrıca adı var.

***

Əsərin təməlində, deyildiyi kimi, İsrail oğulları haqqında Tövrat rəvayətləri durur. Avraamın (İbrahim) oğlu İsaakın (bu, həmin İshaqdır ki, yəhudi-xristian ənənəsinə görə atası onu Allaha qurban kəsmək istəyirdi) arvadı Revekkadan bir cüt əkiz oğlu olur. Bunlardan birinci qıllı İsav dünyaya gəlir, ikinci gələn İakovunsa (Yaqub) bədənində tük bitmir. Anası onu böyük qardaşından çox istəyir. İsaak qocalıb gözləri tutulanda bol süfrə açdırır, böyük oğlunu hüzuruna çağırdır ki, ona varisi kimi xeyir-dua versin. Ancaq Revekka oyun qurur, İakovun bədəninin açıq yerlərini qıllı keçi dərisinə büküb onu İsav adıyla atasının yanına göndərir. Hiylədən duyuq düşməyən qoca İsaak İsav yerinə İakova xeyir-dua verir.

Bundan sonra İakov qaçmağa məcbur olur. İsavın oğlu onun izinə düşüb əmisini yaxalayanda İakov canını qurtarmaq üçün ona yalvarır. Qardaşoğlu əmisini bağışlasa da, onun çəkidə yüngül, vəzndə ağır nəyi varsa, tutub əlindən alır. On yeddi gün yol gedəndən sonra İakov Harran deyilən yerə, dayısı Lavanın yurduna çatır. Burada qaldığı müddətdə o, dayısının kiçik qızı Rahilə aşiq olur. Ancaq Lavan şərt kəsir ki, yeddi il ona qulluq eləməmiş qızını İakova verməyəcək. Yeddi il İakov dayısının mal-davarını otarır, ona sədaqətlə xidmət göstərir, üstəlik, Lavanın torpağında su qaynağı tapır ki, bu da həmin torpaqda bərəkətli bağ-bağat salınmasına imkan yaradır. İntəhası, Lavan əvvəlcə böyük qızı Liyanı ərə vermək istəyir, onu İakova təklif eləyəndə bacısı oğlu bu təklifi kəskin etirazla qarşılayır, əsas da ona görə ki, Liya Rahil kimi göyçək olmur.

Yeddi ilin tamamında toy çalınır. Lavan kələk işlədib gecə gərdəyə Rahilin yerinə Liyanı salır. Səhər İakov dayısının hiyləsindən xəbər tutanda iş işdən keçmiş olur. Lavan onu yumşaltmaq üçün deyir ki, kiçik qızı Rahili də İakova verməyə razıdır, bir şərtlə ki, onun yanında qalıb bir yeddi il də dayısının qulluğunda dursun. İakov onun şərtinin qabağına şərt qoyur - sürülərini ayıracaqlar.

Liya dalbadal hər il İakova bir oğlan doğur, ancaq Rahil uşağa qalmır ki, qalmır. Belədə İakov Rahilin qaravaşı Vallanı özünə kəniz eləyir, iki oğul da ondan alır. Bir neçə il keçmiş Liya da doğuşdan kəsilir, ərinə təklif verir ki, qulluqçusu Zelfanı da kənizliyə götürsün. Beləcə, İakovun Zelfadan da iki oğlu dünyaya gəlir. Rahilinsə yalnız ərə getdiyinin on üçüncü ilində boyuna uşaq düşür, qadın İakovun on birinci oğlunu əzabla, müsibətlə dünyaya gətirir. Körpə İosif tezliklə atasının sevimlisinə çevrilir.

İakov mal-dövlətinə qayınlarının həsəd apardığını, dayısı oğlanlarının onun başını əkib sərvətinə yiyələnmək istədiklərini sezəndə bütün külfətini, sürülərini, evinin ağırlığını da götürüb oralardan geniyir. İakovun qəflə-qatırı yolda qardaşı İsavın dəstəsiylə rastlaşır. Əkiz qardaşlar mehriban görüşürlər, İsavın başında dörd yüz atlı olur, o, İakova bir yerdə məskunlaşmağı, birgə yaşamağı təklif eləyir, ancaq İakov razılaşmır, qardaşına bir az mal-davar bağışlayandan sonra ondan aralanır. Belə anlaşılır ki, İsav cəng, savaş yolu, İakovsa çobanlıq, çodarlıq yolu tutub, bu səbəbdən onlar bir yerdə yola gedə bilməzlər, hərəsinin öz missiyası var. Doğrudur, cəngavər də bir növ çobandır, qədim dünyada hökmdar, yəni baş cəngavər həm də baş çoban sayılırdı - xalq(lar)ı otaran çoban, Allahın çobanı. Ancaq İsavla İakovun yolu indi yox, gələcəkdə - İosifin timsalında kəsişəcək, hələ üstəlik, bu yola bir başqa yol - əkinçilik yolu da calanacaq...

***

Şekem adlı bir şəhərin civarında dayanan İakov burada çadırını başına atıb, sürülərini otarmaq üçün torpaq alır. Dörd ilin tamamında bir əsilzadə oğlu onun on üç yaşlı tək qızı Dinaya elçi düşür. İakov on böyük oğlunu başına toplayıb onlarla məsləhətləşir. Oğlanlar şərt qoyurlar ki, kürəkənliyə namizəd sünnət olunmalıdır. Bir həftədən sonra əsilzadə oğlu şərtə əməl elədiyini deyəndə qardaşlar bir ayrı bəhanə tapırlar: əməliyyat qayda-qanuna uyğun, düzgün icra olunmayıb. Heysiyyətinə toxunulan, əliboş qaytarılan elçilər dörd gündən sonra Dinanı qaçırırlar. Bəyin adamları qız atasının yanına barışığa (həm də başlıq ödəməyə) gələndə İakovun oğlanları onların qarşısına belə bir şərt qoyurlar: bu səfər şəhərin bütün kişiləri eyni zamanda sünnət olunmalıdırlar, özü də qardaşların dediyi vaxtda. Şərt yerinə yetiriləndə qardaşlar Şekemə hücum çəkib bacılarını geri alırlar. İakov bundan xəbər tutanda qəzəblənib ailəsini qan ocağından uzaqlaşdırır. Fəqət Dina artıq hamiləydi, uşaq dünyaya gələcək qardaşları körpəni məhv eləyirlər. Göründüyü kimi, İsrail övladları öz damarlarına yad qan buraxmaq istəmirlər.



*F. Uğurlu*

davamı növbəti sayımızda

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Qeydiyyat başladı...

## Boş qalan plan yerlərinin aqibəti necə olacaq?



*Yeganə BAYRAMOVA*

Bir neçə gündən sonra tələbə adını qazanan gənclər yeni tədris ilinə başlayacaqlar. Bu il ali məktəblərə kifayət qədər boş plan yerləri qaldı. Adətən həmin yerlərə qəbul baş tutsa da, yenə boş qalan yerlər var. Səbəb tələbə adını qazanan gənclərin qəbul olduqları ali məktəbdə qeydiyyatdan keçməməsidir.

Dövlət İmtahan Mərkəzi (DİM) “Abituriyent” jurnalının 7-ci nömrəsini nəşr edib. Bu nömrədə 2024/2025-ci tədris ili üçün ali təhsil müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçim elanı, boş qalan yerləri olan ixtisaslar, bakalavriat səviyyəsinə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu və digər zəruri məlumatlar təqdim olunub. Qeyd edək ki, vəsait Azərbaycan və rus dillərində çap edilib.

Məlum olduğu kimi, ali təhsil müəssisələrinə builki qəbul imtahanlarının nəticələri bəlli olub. Bu gündən ali təhsil müəssisələrinin boş qalan yerləri üzrə ixtisas seçimi başlayır. Belə ki, avqustun 28-i saat 11:00-da ali təhsil müəssisələrinə bakalavriat səviyyəsi üzrə qəbul olunanlar üçün qeydiyyat prosesinə start veriləcək. Proses sentyabrın 6-dək internet üzərindən davam edəcək.

**Plan yerləri ən çox bu qrup üzrə dolub**

DİM İdarə Heyətinin sədri Məleykə Abbaszadə avqustun 26-da keçirilən mətbuat konfransında bildirib ki, son illər qəbul planında dövlət sifarişli yerlərin sayının artırılması nəticəsində ödənişsiz oxumaq imkanı əldə edən tələbələrin sayı çoxalmaqda davam edir. DİM sədri qeyd edib ki, müsabiqənin nəticələrinə fikir verdikdə qrup və ixtisaslar üzrə vəziyyətin necə formalaşacağı - müəyyən ixtisaslar üzrə keçid ballarının ötən illə müqayisədə yüksələcəyi ilə bağlı proqnozların özünü doğrultduğunu görə bilərik: “I ixtisas qrupu üzrə 1304, II ixtisas qrupu üzrə 246, III ixtisas qrupu üzrə 400, IV ixtisas qrupu üzrə 463, V ixtisas qrupu üzrə isə 348 plan yeri boş qalıb. Plan yerləri ən çox ikinci ixtisas qrupunda dolub (98.29%). Burada plan yerlərinin sayı imtahan verən və müsabiqədə iştirak etmək hüququ olan abituriyentlərin sayından çox olsa da, əvvəlcədən də proqnoz edildiyi kimi subbakalavrların şansı var idi və onların hesabına dolma göstəriciləri yüksəkdir”.

**1103 tələbə Qarabağ Universitetini seçdi**

DİM sədrinin sözlərinə görə, ali təhsil müəssisələrinə ixtisas seçimi müsabiqəsinin nəticələrinə əsasən, Qarabağ Universitetinə 1103 tələbə qəbul olub: “Qarabağ Universitetinə qəbul olanların 16,14 faizi Bakı şəhər sakinləridir. Bakıda yaşayan gənclər Qarabağ Universitetini seçərək orada təhsil almağı üstün tutublar. Qəbul olanların 3,81 faizi Naxçıvandan, 6,80 faizi Sumqayıt şəhəri, Abşeron, Xızı, Şamaxı və Qobustan bölgələrindəndir. Tələblərin 22,67 faizi Mingəçevir, Naftalan, Yevlax, Şuşa, Xocalı, Xocavənd, Goranboy, Kəlbəcər, Bərdə, Ağcabədi, Ağdam, Tərtər bölgələrindəndir. Bu da təbiidir, çünki onlar artıq orada yaşayırlar”.

**Bu ixtisaslar üzrə yerlər boş qalır...**

M.Abbaszadə həmçinin bildirib ki, V qrupda müxtəlif ixtisaslar var. Məsələn, bu il dirijorluq ixtisasında boş yerlər qalıb: “Burada xüsusi bacarıq və bilik tələb olunur. Elə sahə var ki, necə deyərlər, dəbdə olan sahədir. Məsələn, hamı özünü dizayner görür. Hansı ixtisaslarda dövlət sifarişli yerlərin sayının artırılması, ya da azaldılması bizdən asılı deyil. Qəbul planı hökumət tərəfindən həm universitetlərlə müzakirə olunur, həm də ölkədə olan tələbat nəzərə alınır. Bunu hansısa bir ixtisas üzrə həll etmək mümkün deyil. Hər il biz görürük ki, operatorluq, heykəltəraşlıq ixtisasları üzrə dövlət sifarişli yerlər boş qalır. Bu, o demək deyil ki, bizə bu sahə üzrə mütəxəssislər lazım deyil. Yəni dövlət sifarişli yerlər qalmalıdır. Digər sahəyə, məsələn, estrada sənətinə gedənlər çoxdur. Bu da o demək deyil ki, biz orada dövlət sifarişli yerlərin sayını artırmalıyıq”.

**Maarifləndirmə intensiv aparılmalıdır**

DİM sədri hərbi mühəndislik ixtisaslarında dövlət sifarişli yerlərin tam dolmadığını bildirib: “Çalışırıq ki, bu istiqamətdə müəyyən maarifləndirmə işləri aparaq. İxtisas seçimi ərəfəsində biz ali məktəblərə sərgidə iştirak etmək imkanı yaratdıq. Sərgidə təqdim edilən ixtisaslara maraq da var idi. Əlbəttə, biz müəyyən maarifləndirmə işləri aparırıq. Lakin ixtisasla bağlı maarifləndirmə universitetin öz işidir”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması” istiqaməti üzrə hazırlanmışdır**

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Yardımlı rayon təşkilatının sədr müavini

**MAQSUD ŞABIYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.



## “Paris-2024”: Azərbaycan paralimpiyaçılarının yarışlarının təqvimi

Avqustun 28-də Fransada “Paris-2024” Yay Paralimpiya Oyunlarının rəsmi açılış mərasimi keçiriləcək.

AZƏRTAC xəbər verir ki, Oyunlarda idman yarışları isə bir gün sonra - avqustun 29-da start götürəcək.

Azərbaycan sentyabrın 8-dək davam edəcək Paralimpiadada 7 növ üzrə ümumilikdə 19 idmançı ilə təmsil olunacaq.

Paralimpiyaçılarımızın yarışlarının təqvimini təqdim edirik:

29 avqust
Parataekvondo
Röyalə Fətəliyeva (K44 kateqoriyası, 52 kiloqram)
Sabir Zeynalov (K44 kateqoriyası, 58 kiloqram)
Təsnifat: 12:00-16:30
Final: 19:00-23:30
Paraüzgüçülük
Könül Süleymanova (S2 kateqoriyası, 100 metr məsafəyə arxası üstə üzmə)
Təsnifat: 12:26
Final: 20:10
Parakamandan oxatma
Cahan Musayev
Təsnifat: 15:00

30 avqust
Parataekvondo
İmaməddin Xəlilov (K44 kateqoriyası, 70 kiloqram)
Təsnifat: 11:30-17:30
Final: 19:00-00:30
Paraatıcılıq
Kamran Zeynalov (P1 kateqoriyası, 10 metr məsafəyə atəş açma)
Təsnifat: 13:15
Final: 16:00
Paraatletika
Oloxan Musayev (F55 kateqoriyası, nüvə itələmə)
21:05

31 avqust
Paraüzgüçülük
Raman Saley (S12 kateqoriyası, 100 metr məsafəyə arxası üstə üzmə)
Təsnifat: 11:30
Final: 19:30
Könül Süleymanova (S2 kateqoriyası, 50 metr məsafəyə arxası üstə üzmə)
Təsnifat: 13:09
Final: 21:50
Parataekvondo
Əbülfəz Abuzərli (K44 kateqoriyası, 80 kiloqram)
Təsnifat: 12:00-16:30
Final: 19:00-23:30
Paraatıcılıq
Aybəniz Babayeva (P2 kateqoriyası, 10 metr məsafəyə atəş açma)
Təsnifat: 14:00
Final: 16:45



2 sentyabr
Paraatletika
Səid Nəcəfzadə (T12 kateqoriyası, uzunluğa tullanma)
12:00
Paraüzgüçülük
Raman Saley (S13 kateqoriyası, 50 metr məsafəyə sərbəst üsulla üzmə)
Təsnifat: 12:43
Final: 20:41

3 sentyabr
Paraatletika
Lamiyə Vəliyeva (T13 kateqoriyası, 100 metr məsafəyə qaçış)
22:08

4 sentyabr
Paraüzgüçülük
Raman Saley (S12 kateqoriyası, 100 metr məsafəyə sərbəst üsulla üzmə)
Təsnifat: 11:30
Final: 19:30
Paraatıcılıq
Kamran Zeynalov (P4 kateqoriyası, 50 metr məsafəyə atəş açma)
Aybəniz Babayeva (P4 kateqoriyası, 50 metr məsafəyə atəş açma)
Təsnifat: 11:30
Final: 14:15
Parapauerliftinq
Ceyhun Mahmudov (54 kiloqram)
20:35
Paraatletika
Rüfət Rəfiyev (F36 kateqoriyası, nüvə itələmə)
23:10

5 sentyabr
Paraüzgüçülük
Vəli İsrafilov (SB13 kateqoriyası, 100 metr məsafəyə brass (qurbağa) üsulu ilə üzmə)
Təsnifat: 12:49
Final: 21:01

7 sentyabr
Paraatletika
Orxan Aslanov (T13 kateqoriyası, uzunluğa tullanma)
12:00
Lamiyə Vəliyeva (T13 kateqoriyası, 400 metr məsafəyə qaçış)
12:22
Paracüdo
Dürsədəf Kərimova (J2 kateqoriyası, +70 kiloqram)
Xatirə İsmiyeva (J1 kateqoriyası, +70 kiloqram)
İlham Zəkiyev (J1 kateqoriyası, +90 kiloqram)
Təsnifat: 11:30-14:12
Final: 17:30-20:00
Paraüzgüçülük
Raman Saley (S12 kateqoriyası, 100 metr məsafəyə butterfly (kəpənək) üsulu ilə üzmə)
Təsnifat: 12:49
Final: 21:23




## Mingəçevirdə avarçəkmə üzrə Azərbaycan çempionatı keçiriləcək

Gənclər və İdman Nazirliyi (GİN) ilə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının (AKAF) birgə təşkilatçılığı əsasında sentyabrın 3-4-də akademik avarçəkmə, kayak və kanoe üzrə Azərbaycan çempionatı keçiriləcək.

AKAF-ın mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Mingəçevir şəhərində yerləşən “Kür” Olimpiya Tədris-İdman Mərkəzində təşkil olunacaq yarışda Bakı və Mingəçevirdən 100-dən artıq idmançı mübarizə aparacaq.

Ölkə çempionatında avarçəkənlər kayak və kanoe növlərində 1 və 2 nəfərlik qayıqlarda 200, 500 və 1000 metr məsafədə çıxış edəcəklər. Akademik avarçəkmədə isə iştirakçılar 1, 2 və 4 nəfərlik qayıqlarda 1000 və 1500 metr məsafədə güclərini sınayacaqlar.

Qeyd edək ki, Azərbaycan çempionatı oktyabrda baş tutacaq ənənəvi “Mingəçevir Reqatası-2024” beynəlxalq turnirinə hazırlıq və seçim xarakteri daşıyır.

## Azərbaycan idmançısı titul döyüşündə qazaxıstanlı rəqibinə qalib gəlib

Azərbaycan MMA və Qrappling Federasiyasının idmançısı Fərid Babazadə Qazaxıstanın Almata şəhərində keçirilmiş “Octagon” liqasında kəmər uğrunda mübarizə aparıb.



AZƏRTAC xəbər verir ki, 57 kiloqram çəki dərəcəsində çıxış edən idmançı qazaxıstanlı Askar Jaksilikovla üz-üzə gəlib.

Görüşün 5-ci raundunda boğucu fənd ilə rəqibini məğlub edən F.Babazadə liqanın çempionu oldu.

## Azercell “Həyatı daha dolğun edirik: qadınlara dəstək proqramı”na start verir

***Lider mobil operator sosial layihə təkliflərinin qəbuluna başlayır***

Azercell “Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik” strateji məqsədinə sadiq qalaraq qadınların ictimai həyatda fəallığının artırılmasını hədəfləyən sosial layihə müsabiqəsini elan edir. Müsabiqənin məqsədi qadınların cəmiyyətdə mövqeyinin yaxşılaşdırılmasına, həmçinin maddi-mənəvi rifahının artırılmasına dəstək olmaqdır.

Müsabiqəyə təqdim olunan layihələr aşağıdakı mövzulardan birini əhatə etməlidir:

* Müxtəlif istiqamətlər üzrə qadınların bilik və bacarıqlarının təkmilləşdirilməsi;

* Qadınlara sahibkarlıq və biznes fəaliyyətinə dair praktiki biliklərin aşılanması;

* Texnoloji və innovativ sahədə qadınlarda yeni bacarıqların formalaşdırılması;




* Qadınların hüquq və maliyyə savadlılığının artırılması;

* Qadınlar arasında sağlam həyat tərzinin təbliğ edilməsi.

Seçim zamanı rəqəmsal mühitin inkişafına, inklüzivliyin təmin edilməsinə, həmçinin texnoloji həllər vasitəsilə həyat səviyyəsinin yüksəldilməsinə dəstək olan layihələrə üstünlük veriləcək. Layihələrin geniş hədəf qruplarına faydalı olmasına, eyni zamanda davamlı şəkildə həyata keçirilməsinə önəm veriləcək.

Layihələrin qiymətləndirmə prosesinin şəffaflığını və obyektivliyini təmin etmək məqsədilə müsabiqəyə təqdim olunan təklifləri ölkənin bu sahələrdə ixtisaslaşmış ekspertlərindən ibarət münsiflər heyəti dəyərləndirəcək.

Müsabiqə çərçivəsində iki qalib layihə seçiləcək ki, hər birinin həyata keçirilməsi üçün Azercell tərəfindən 5.000 AZN-dək qrant ayrılacaq.*

Qeyd edək ki, müsabiqədə yalnız qeyri-hökumət və qeyri-kommersiya təşkilatları iştirak edə bilərlər.

Layihə təklifləri Azərbaycan dilində 27.08.24-10.09.24 il tarixləri aralığında qeyd olunmuş link üzərindən göndərilməlidir. Müraciətə layihənin həyata keçirilməsi üçün tələb olunan büdcənin detallı açıqlamasının əlavə edilməsi xahiş olunur.

“Azercell Telekom” MMC bütün iştirakçılara uğurlar arzu edir!

* Qrantın məbləği münsiflər heyətinin layihə dəyərləndirməsindən asılı olaraq dəyişə bilər.

## “Nar” “YAŞAT” Fondunun şəhid övladları üçün təşkil etdiyi düşərgəyə dəstək oldu

Sərfəli qiymətləri və müştərilərə uyğun təklifləri ilə tanınan operator “Nar” özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində “YAŞAT” Fondunun yeniyetmələr üçün təşkil etdiyi düşərgəsinə dəstək oldu.

Naxçıvan Muxtar Respublikası ərazisində baş tutan düşərgəyə Azərbaycan və Türkiyədən 15-17 yaş arası, 50-dək yeniyetmə şəhid övladları dəvət edilib. Layihənin məqsədi ölkələrimizin ərazi bütövlüyü uğrunda həyatından keçən şəhidlərimizin əmanəti sayılan övladlarına mənalı və öyrədici istirahət imkanı yaratmaq və onları ölkəmizin tarixi məkanları və füsunkar təbiəti ilə tanış etməkdir.

21-24 avqust tarixlərini əhatə edən layihə çərçivəsində Əlincə qalasının və Batabat gölünün ziyarəti, həmçinin Naxçıvan qalasına, Əcəmi seyrangahına, o cümlədən, Möminə Xatun türbəsinə ekskursiyası nəzərdə tutulur.

“Nar”ın KSM strategiyası və həyata keçirdiyi sosial layihələr haqqında ətraflı məlumatı operatorun rəsmi saytından (nar.az) əldə edə bilərsiniz.




“Nar” hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4848**
**Sifariş: 1945**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova